**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVANDA MİLADDAN ÖNCƏKİ DÖVRLƏ BAĞLI ETNOOYKONİMLƏRİN SEMANTİK-STRUKTUR SİSTEMİ

İxtisas: 5706.01 – "Azərbaycan dili"

Elm sahəsi: Filologiya

İddiaçı: **Firudin Həsən oğlu Rzayev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2025**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** Filologiya elmləri doktoru, professor
**Adil Məhəmməd oğlu Babayev**

**Rəsmi opponentlər:** Filologiya elmləri doktoru, professor
**Sayalı Allahverdi qızı Sadıqova**

Filologiya elmləri doktoru, professor
**İbrahim Məhəmməd oğlu Bayramov**

Filologiya elmləri doktoru, professor
**Akif Kazım oğlu İmanlı**

Filologiya elmləri doktoru, professor
**Astan Əhmədxan oğlu Bayramov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.39 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Əbülfəz Aman oğlu Quliyev**

Dissertasiya şurasının elmi katibi: ____________ Filologiya üzrə fəlsəfə doktoru, dosent
**İman Zeynalabdin oğlu Cəfərov**

Elmi seminarın sədri: ____________ Filologiya elmləri doktoru, professor
**Sədaqət Qurbanəli qızı Həsənova**

# Giriş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Vahid dil ailəsində öz tarixi sivilizasiyalarını yaradan qədim türklər böyük mədəniyyətləri ilə bəşəri təkamüldə öz yerini almış, bu mədəniyyət qonşu xalqların mədəniyyəti və inanclarına da öz təsirini göstərmişdir. Qədim türklər ilk məskun olduqları ərazilərdə dövlət qurumları, şəhər, qəsəbə, məntəqə və s. coğrafi adları, mövcud dilin ifadə imkanları, öz adları və mifik inanclarına istinadən adlandırmışlar. Tarix səhnəsinə m.ö. VI minillikdə çıxan qədim Azərbaycan türkləri bir ittifaqda birləşərək, ərazilərimizdə m.ö. VI-I minilliklərdə böyük dövlətlərini qurub, tarixdə öz izlərini qoymuşlar. Lakin sovetlər siyasətində adımız, dilimiz və dövlət qurumlarımız XI əsrlərə aid edilib, əsl tariximiz və dilimiz təhrif olunduğundan, tarixi həqiqətin qədim mənbə, sözlüklər və antik müəlliflərin əsərlərinə əsasən yenidən tədqiqini zəruri hesab edirik. Dissertasiyada məhz bu problem aktual məsələ kimi yer almış, əsas mənbə kimi Naxçıvanın oykonimik sistemi götürülmüşdür. Bu adlarda öz izlərini yaşadan tayfaların ərazisi, dili, tarixi köçləri kimi problemin həllində Hett, Axxiyava, Assur, Urartu, Boğazköy, Orxon-Yenisey və s. salnamə yazılarına istinadən, oykonimlərin m.ö. minilliklərlə bağlılığı elmi faktlarla təsdiq edilmişdir.

Sovetlər dövrü vətənimizin Aratta, Mitan, Manna, Midiya, Atropatena kimi dövlətlərinin ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan ərazisi də daxil olmaqla, əhalinin dili, tarixi və etnik tərkibi əcnəbilər tərəfindən araşdırılmışdır. İ.Dyakonov, M.İvanov, E.Qrantovski, Y.Tokarçevski, Q.Kapançyan kimi əcnəbi alimlərin yazılarında xalqımızın dili, mənşəyi, tarixi təhrif edilmiş, eləcə də vətənimizin adı "Atropatekan", "Azərbayqan", "Adərbaqdan" kimi verilib, dilimi və tariximiz saxtalaşdırılmışdır[1].

Naxçıvan əhalisinin tarixi və dilinin əski dövrlərinə mənbə olan oykonimik sistem son 45-50 il ərzində əcnəbilər tərəfindən tədqiq edilərkən, toponimik adlar sovetlər siyasi marağına uyğun

---

[1] Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. / И.М.Дьяконов – Москва: Наука, –1956. – s. 247-253; Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. / Э.А.Грантовский. – Москва: Восточная литература, –2007. – s. 51, 115-119, 173.

“ərəb-fars, erməni, irandilli” kimi izah edilmiş, bu yazılara istinad edən yerli alimlər də öz əsərlərində fərqli fikirlər yazmışlar. Qeyd edək ki, 1828-1990-cı illər siyasi yolla Naxçıvana aid ərazilərdən 3500-ə qədər məntəqə zorla alınıb, erməni və gürcülərə verilmiş, xeyli kənd məhv edilmişdir. İtirilmiş bu adların bir qismi erməni və gürcülərə aid edilir ki, arxiv sənədləri, qədim mənbə məlumatları və s. əsərlərə istinadən onların yenidən tədqiqi, xalqımızın dili və tarixinin öyrənilməsində xüsusi elmi əhəmiyyət daşıyır və etnooykonimlər bu yöndən əsl mənbədir.

Məhz bu siyasi gedişləri izləyən və 1969-cu ildə Azərbaycan Respublikasına rəhbərliyə gələn Ümummilli Lider Heydər Əliyevin qətiyyəti ilə 1978-ci ildə Konstitusiyamızın 73-cü maddəsində Ana dilimiz, Azərbaycan dili öz yerini aldı. Bundan sonra bütün tarixçi, coğrafiyaçı və dilçi alimlərimizi bu elmlərin tədqiqinə yönəldən Ümummilli Liderin nəzarəti altında qədim dövr dil, tarix və coğrafiyamız tədqiq olunmağa başladı. Ulu Öndərimizin xüsusi tapşırığı ilə, Azərbaycan dilinin qədim dövrü sistemli şəkildə tədqiqata cəlb olundu. Mövcud problemlə bağlı m.ö. minilliklərə aid tədqiq edilməmiş oykonimilər də qədim tarixi qaynaqlara, antik müəlliflərə, salnamə yazılara, arxiv sənədlərinə istinadən tədqiq olunmağa başlanıldı[2].

Qədim oykonimlərin tədqiqində bu və digər dil, tarix yönlü amillərin təhlillərdən kənarda qalması tariximiz və dilimizin ilkin dövrlərinə sahiblənmək istəyənlərin siyasi oyunlarına da yol açır. Bu amillər nəzərə alınmaqla, mövzunun tədqiqi həm elmi, həm də siyasi aktuallıq kəsb edir.

İstər sovetlər dövrü, istərsə də bu gün Rusiya, Fransa, Amerika və s. dövlətlərdə siyasi yöndən yaranan xüsusi “elmi mərkəzlər” Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvanın tarixi və toponimik sistemini təhrif etməkdədir. L.Məmməd, Q.Avetisyan, Q.Qeorqadze, A.Qazıyan kimi erməni, fars, kürd müəllifləri tarix və dilimi-

---

[2] Rzayev F.H. Heydər Əliyev qətiyyəti və Azərbaycançılıq // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri (xüsusi buraxılış), – 2013. – s. 104-114; İrəvan əyalətinin icmal dəftəri / – Bakı: Elm, –1996. – s.159-183; Tarixi adlara qarşı soyqırımı / –Bakı: Təhsil, –2006. – s. 7-54; Naxçıvan sancağının müfəssəl dəftəri / – Bakı: Sabah, –1997. – s. 25-36.

zə sahib olmaq istəyi ilə xəritələr tərtib edib, ərazilərimizi özlərinə aid edirlər. Moskva və qədim Azərbaycan şəhəri Dərbənddə "Dostani", "Dünya dilləri", "Yujdaq" kimi mətbəə jurnallarında xalqımızın tarixi, dili, ərazisi təhrif edilir. Burada çəkilmiş xəritədə tarixi m.ö. IV minilliyə qədər söykənən qədim Naxçıvan şəhəri "Kürdüstanın paytaxtı" olaraq göstərilir. Onların yazılarında Azərbaycanın qədim Hürri, Kassi, Kuti, Aratta, Mitan, Manna, Midiya və s. çarlıq və dövlətləri, As, Kuti, Hürri, Türükkü, Kassi və s. qədim türk tarixi təhrif olunub kiçik xalqların "dövlətləri" kimi təbliğ edilir[3]. Lakin tarixi proseslər Naxçıvan ərazisindən min illər öncə yaranmış mədəniyyəti silə bilməmiş, coğrafi adlar və arxeoloji nümunələr bu tarix və mədəniyyətin qədim türklərə aidliyini özündə qorumuşdur.

Naxçıvanda m.ö. minilliklərlə bağlı etnooykonimlərin semantik-struktur sistemi ayrıca tədqiqat mövzusu olmasa da, onlara müxtəlif istiqamətlərdən yanaşılmışdır. Tədqiqatlar zamanı xeyli Azərbaycan, türk və əcnəbi müəlliflərin elmi tədqiqat əsərlərinə mənbə kimi yanaşılmış, bu yöndən Z.Bünyadov, İ.Həbibbəyli, İ.Hacıyev, İ.Əliyev, Y.Yusifov, B.Budaqov, A.Qurbanov, A.Axundov, A.Bağırov, A.Babayev, Q.Qeybullayev, A.İmanlı kimi tarixçi, coğrafiyaçı və dilçi alimlər xeyli yeni elmi nəticələr əldə etmişlər. Onların tarix və dilimizi təhrif edən fikirlərə elmi təkzibi, yeni gələn tədqiqatçıları da qədim mənbələrə, yazı və salnamələrə diqqət etməyə istiqamətləndirir. Tədqiqatlar deməyə əsas verir ki, qədim Naxçıvan diyarı m.ö. XVII-IX əsr və sonrakı dövrlər Mitan, Manna, Midiya, Atropatena dövlətlərinin qüdrətli əyaləti olmuşdur[4] . Lakin sovetlər siyasəti ilə prototürklərə aid coğrafi adlar, arxeoloji, etnoqrafik, qayaüstü yazıları yad xalqlara aid edilmişdir. Ərazidə m.ö. IV minilliyə aid I, II Kültəpə mədəniyyəti, tunc dövrlərinə aid Albantəpə, Qırlar, Xoşkeşin, Qazançı, Nəhəcir, Axura, Havuş kimi kəndlərin nekropol və kromlex qəbirlərindən m.ö. III-II minilliyə aid aşkarlanmış

---

[3] Георгадзе, Г.Г. Хетты и хурриты по древнехеттским текстам // Вестник древней истории. – Москва: –1969. №1, – с. 71-168; Казиян, А.С. Хаттский язык // –Языки мира: Древние реликтовые языки Передней Азии /–РАН. Институт языкознания / – Москва: Academia, –2010. – с. 168-184.

[4] Hacıyev, İ.M. Naxçıvan və naxçıvanlılar / İ.M.Hacıyev, Ş.H.Məmmədov. –Bakı: Elm, – 2001. – s.12-13.

əşyalar əski türk mədəniyyəti nümunələridir[5]. Təbii ki, hələ o dövrlər tarix səhnəsinə çıxmayan ərəb, fars və friq-ermənilər bu mədəniyyəti və adları yarada bilməzdilər[6].

Naxçıvan MR ərazisinin arxiv sənədlərində yer alan m.ö. minilliklərlə bağlı şəhər, qəsəbə, kənd adları tədqiqatlarda "ərəb-fars", "erməni mənşəli" kimi izah edilmişdir. Lakin bu adlar əski türk yazılı abidələri, salnamə yazıları, türk dili sözlükləri ilə müqayisədə tam türk dilində izah olunur.

Problemlə bağlı tədqiqatlarda Naxçıvan ərazisindəki adlara nəzər saldıqda məlum olur ki, çoxsaylı yer adlarının mənaları ərəb, fars sözləri ilə anlaşılmaz mənalarda izah olunmuşlar[7]. Lakin Azərbaycan və türk alimlərinin yazıları və qədim salnamə, mənbə və türk sözlüklərinə diqqət etdikdə, "ərəb-fars" dilinə aid edilmiş Naxçıvan, Əbrəqunus, Ərəfsə, Disər, Sirab kimi yüzlərlə adı formalaşdıran abra / əbrə -"xilaskar", "qüvvətli", *qın*-"qala", *us/as*-As, Tus kimi söz və tayfa adlarının qədim türk sözlər olduğu üzə çıxır. Bu qədim türk leksik vahidlərinə nəzər saldıqda onların qədim türk dili sözlüklərində türk leksik vahidləri olduğu özünü təsdiq edir. Bu qədim türk sözlərimiz Midiya, Manna, Atropatena toponimlərində Kintau, Kinqaruki, Kinzin kimi şəxs adlarında və qədim türk dili sözlüklərində də təkrarlanır[8]. Ümumilikdə Naxçıvan ərazisnə aid 600-dən yuxarı etnooykonimik adlar əski türk yazılı abidələri, salnamə yazıları, türk dili sözlükləri ilə müqayisədə tam türk dilində izah olunur.

Tədqiqatlarda Naxçıvan ərazisi oykonimik adlarının ərəb, fars

---

[5] Naxçıvan abidələri ensiklopediyası // –Naxçıvan –İstanbul: Bakanlar Medya, – 2008. – s. 195.

[6] Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. –Bakı: Bakı Universiteti nəşriyyatı, – 1993. – s. 308-356.

[7] Allahyarov, K.A. Naxçıvan sözünün mənşəyi və mənası // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, –2002. № 14, – s. 27-30.

[8] Həbibbəyli, İ.Ə. Naxçıvan şəhərinin yaşı-5 min il // Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. – Bakı: Nurlan, –2007. – s. 20-28; İ.Ə.Həbibbəyli, Nuh peyğəmbər və dünya tufanı toplusu / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. –Naxçıvan: Əcəmi, –2009. – s. 55-68; Hacıyev, İ.M., Rzayev, F.H. Bir daha "Naxçıvan" sözünün etimologiyası haqqında // – Bakı: Tarix və onun problemləri. –2007. № 2, – s. –303-312.

sözləri ilə izahları siyasi məqsəd daşımışdır[9]. Bu cür tədqiqatlar Azərbaycan və türk alimlərinin yazıları və qədim salnamə, mənbə və türk sözlükləri ilə müqayisədə tam təkzib edilir. Bu cür izahlara Sak, Çul, Maq, Subi, Şirak və s. prototürk adlarını daşıyan xeyli məntəqə adlarına dair təhlillərdə də rast gəlinir. Bu toponimik adları İ.Dyakonov, E.Qrantovski, E.Murzayev kimi əcnəbi və yerli alimlər öz yazılarında ərəb-fars dillərinə aid etmişlər[10]. Təbii ki, bu tədqiqat metodu da sovetlərin siyasi məqsədlərindən irəli gəlirdi.

Elmi cəhətdən əhəmiyyətli fikirlərlə yanaşı, bəzi alimlərin tədqiqatlarında m.ö. minilliklərlə bağlı Naxçıvan oykonimlərinin təsviri izahlarına rast gəlirik. Bu isə dil və tariximizin son dövrlər formalaşması fikrini yaradır və siyasi yöndən dil və tariximizin saxtalaşdırılmasına yol açır. Azərbaycan toponimlərinin tədqiqində xüsusi rolu olmuş T.Əhmədov, Q.Budaqova kimi bir çox alimlərin yazılarında elmi əhəmiyyətli fikirlərlə yanaşı, xeyli sayda toponimik adlar tamamilə yad dillərə aid edilmişdir. Burada etnooykonimlər yarı fars dilinə bölünməklə, yarı Azərbaycan dilinə aid edilmiş, m.ö. IV minillikdən tarix səhnəsində olan As, Kas, Doray, Tus, Tal və s. türk tayfa adlı məntəqələr müasir dilimizdə izah olunmuşdur. Bu vəziyyətə Keştaz-"Keşlə elinin düzü", Aza-"Çay kənarı məkan", Oğuzbatur-"öküz batır" kimi adların izahında rast gəlirik[11].

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti göstərilən problemlərlə bağlı qədim türk etnooykonimləridir ki, bu adlar sistemi qədim tariximizə, etnogenezimiz və dilimizə, coğrafiya və mifologiyamıza tam aydınlıq gətirilməsi baxımından əsl mənbə yerindədir. Bəzi yazılarda mövcud problemlərə yanaşılsa da, bu

---

[9] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c. (m.ö.VI-III minilliklər) / F.H. Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2013. – s. 34-41.

[10] Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. / И.М.Дьяконов. – Москва: Наука, –1956. – s. 185.

[11] Azərbaycan toponimləri. Ensiklopedik lüğət / – Bakı: Azərbaycan Ensiklopediyası. – 1999. – s. 34; Budaqov, B.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti / B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. – Bakı: Oğuz eli, – 1998. – s. 216, 234-237; Budaqova, Q.B. Naxçıvan Muxtar Respublikasının toponimləri / Q.B.Budaqova. –Bakı: Elm, –1998. – s. 25-30, 37; Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / T.M.Əhmədov. – Bakı: Bakı Universiteti nəşriyyatı, –1991. – s. 76-120.

istiqamətdə konkret və hərtərəfli tədqiqat işi mövcud deyil və m.ö. minilliklərlə bağlı etnooykonimlər sistemli tədqiq edilməmişdir. Bu cür tədqiqatlar obyekt və predmetin həllini dil, tarix, arxeologiya, coğrafiya və etnogenetik baxımdan təsdiq etmir. Bu oykonimik sistemin semantik-struktur baxımından tədqiqində əldə olunan yeni elmi nəticələr, onlardakı leksik və qrammatik qədim türk dili elementləri antik tarixçi, coğrafiyaçıların əsərləri, Assur, Hett, Axxiyava və Urartu yazıları və yazılı salnamələrdəki türk tarixi ilə bağlı toponimlərlə müqayisələr obyekt və predmet kimi qəbul edilmişdir. Dissertasiyada 40-a yaxın qədim və müasir türk dili lüğətləri, Naxçıvanın qədim İrəvan, Maku, Surməli və s. ərazilərin adları, Azərbaycan, Naxçıvan, İrəvan, Türkiyə arxiv sənədlərindəki m.ö. minilliklərə aid türk tayfa adlı oykonimlər də obyekt kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsəd və vəzifəsi məhz Naxçıvan oykonimlərinin etimoloji izahında "erməni" və "ərəb" mənşəli fikirləri elmi əsaslarla təkzib etmək, onların Azərbaycan dilində olduğunu sübut etməkdir. Biz əsasən bu cür siyasi fikirlərə E.Murzayev, V.İvanov, İ.Dyakonov və b. əcnəbi alimlərin yazılarında rast gəlirik. E.Murzayev qədim türk Surikat-"qüvvətli Sirlər-Siraklar" oykonimində *kat*-"qüvvə" sözünə -s hərfi artırmaqla "*kats*", erməni dilində *-sək* şəkilçisi, türk Aran+çav-"Şöhrətli ər" sözünə -h samiti artırmaqla *haran*-"daş", *çov*-"su" kimi erməni dilinə aid etmişdir.[12] Bildiyimiz kimi, "Şir"sözü həm Şir/Şirak türk tayfa adı, həm də Şar-türk işıq tanrısının adı idi və qədim mənbə, türk dili sözlüklərində də təkrarlanır[13].

Azərbaycan alimlərinin də belə mənbələrə istinadlarında bu cür fikirlər təkrarlanmışdır.[14] Lakin "erməni mənşəli" hesab edilmiş adlara diqqət etdikdə görürük ki, bütün bu adları formalaşdıran

---

[12] Мурзаев Э.М. География в названиях / Э.М.Мурзаев –Москва: Наука, – 1979. – s. 113.

[13] Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı,–1993. – s. 304-305; Всемирная история. Т. I, / – Москва: Госиздат, – 1956. – s. 316, 379, 448; Дрвнетюркский словрь / –Ленинград: Наука. –1969. – с.135.

[14] Budaqova, Q.B. Naxçıvan Muxtar Respublikasının toponimləri / Q.B. Budaqova. – Bakı: Elm, –1998. – s. 25-30, 37.

*kul/qul*-"ulu", *uk*-"oğul, varis", *berd/bert*-"başçı, çar", "qala", *kan*-"oba, yurd", *kert/keld*-"keçid", *şen*-"şenlik, el", *zor/sır*-"işıq, şüa", *van/ban*-"uca yer" əski türk dilindədir[15].

Bütün bu faktları əsasən qeyd edə bilərik ki, Naxçıvan ərazisinə aid qədm və müasir etnooykonimlər sovetlər dövrü sistemli tədqiq edilməmiş, adlar əcnəbi alimlər tərəfindən qeyri millətlərə aid olunmuşdur. O dövr Azərbaycan alimlərinin də əcnəbi alimlərinin əsərlərinə istinadları istər Azərbaycan, istərsə də Naxçıvan toponimlərinin tədqiqində ziddiyyətli fikirlər yaratmışdır. Bu baxımdan tədqiqat zamanı aşağıdakı vəzifələrin həyata keçirilməsi vacib sayılmışdır:

- Tayfa adı kimi təqdim olunan sözlərin tayfa adı olmasını təsdiq edən qədim dövr dil vahidlərinin (kök və şəkilçi) və qədim Azəbaycan tayfa adlarının tarixdəki yeri ilə coğrafi arealının Naxçıvanla bağlılığının elmi faktlarla təsdiqi və Naxçıvan oykonimlər sistemində prototürk tayfa adlarının m.ö. minilliklər üzrə sistemləşdirilməsi;

- Qədim Azərbaycan tayfaları ilə bağlı antroponimik və coğrafi adlarda dil elementlərinin, inanclardakı tanrı adlarının Naxçıvan oykonimlərində və etnos adlarında mövcudluğunun elmi sübutu;

- Azərbaycanlılara aid əski yazılı salnamələrdəki onomastik vahidlərin Naxçıvan oykonimlərində təkrarı və əski dilimizdə nitq hissələrinə aid sözlərin əsasən birhecalı köklərlə ifadəsi və oykonimlərdə hərflərin leksik məna daşımasının (i- irdi "nail oldu", e- "ev" kimi) elmi təsdiqi;

- Tədqiqat zamanı qədim etnooykonimlərə aid edilmiş 600-dən yuxarı məntəqə adı-oykonimin leksik, leksik-semantik, qrammatik, fonetik məna və quruluşlarının müasir dilimizdəki izlərinin elmi təhlili;

- Tədqiqatlarda yad dillərə aid edilmiş etnooykonimlərin təhlili zamanı onların leksik-semantik, fonetik quruluşu, Azərbaycan, ümumtürk arealında yayımı, əski türk tayfa adlarından yarandığının elmi sübutu;

- Mixi yazı və salnamələrdəki etnooykonimlərdə mövcud olan

---

[15] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c. (m.ö.VI-III minilliklər) / – Bakı: ADPU nəşriyyatı, – 2013. – s. 452-479; II c. (m.ö.II-I minilliklər) / F.H. Rzayev. –Bakı: ADPU nəşriyyatı, –2017. – s. 511.

əski dövr leksik-semantik quruluşdakı türk dili elementlərinin qədim türk sözlükləri əsasında dilçilik, coğrafi, tarixi aspektdən təsdiqi;

-Etnooykonimik adlardakı tayfa adlarının türk tayfa adları olub m.ö. minilliklərdə Naxçıvanda yaşayan yerli avtoxton tayfalar tərəfindən öz dilləri hesabına yaratdıqlarını elmi faktlarla əsaslandırmaq;

-Sistemli şəkildə tədqiq edilməmiş etnooykonimlərin m.ö. hansı minilliklər və hansı prototürk tayfa adları ilə bağlılığını və həmin tayfaların kimlərlə ittifaqda olduqlarını tarix, coğrafi və dil faktları ilə təsdiq etmək;

- Naxçıvan ərazisində yaşamış As, Türük, Naxər, Lulubi, Şu, Kuti, Midiya tayfaları, Kəngər kimi 43 tayfanın m.ö. VI-I minilliklər tarixdəki yeri, onlarla bağlı etnooykonimlərin semantik-struktur təhlili dissertasiyada əsas məqsəd və vəzifə kimi götürülmüşdür.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını tarixi-müqayisəli; linqvistik və etimoloji izahlar, etnooykonimlərin semantik-struktur təhlili metodları təşkil edir. Burada müqayisəli tarixi, qarşılaşdırılma-tipoloji, təsviri, struktur təhlil, müqayisəli tipoloji metodlar və s. əsas götürülmüşdür. Bu metodlara istinadən etnooykonimlərin daşıdığı mənalar, onlardakı dil, tarix, tayfa adları, tayfaların daşıdığı mifoloji inanclar öyrənilir. Tədqiqat zamanı dünya dilçilik elminin, türkologiyanın və Azərbaycan dilçiliyinin qədim dövr quruluşlarına istinadən, problemlə bağlı fikirlər nəzərə alınmışdır.

Qeyd edə ki, m.ö. minilliklərə aid edilmiş etnooykonimlərin müasir dilin quruluşlarına istinadən tam izah edilməsi mümkün deyil. Bu adların etimoloji izahları istiqamətində qədim tayfa və etnooykonimləri əks etdirən mənbələr araşdırılıb, antik müəlliflər, yazılı salnamələr, əski türk sözlükləri və türk mifologiyasına dair mənbələrə istinadlar edilmişdir.

Dissertasiya işinin tədqiqində qədim türk etnooykonimləri, bu adlar sistemi qədim tariximizə, etnogenezimiz və dilimizə, coğrafiya və mifologiyamıza tam aydınlıq gətirilməsi baxımından əsl mənbə metodu kimi götürülmüşdür. Bəzi yazılarda qədim türk dili sözlükləri və antik müəlliflərə istinadən mövcud problemlərə yanaşılsa da, bu istiqamətdə konkret və hərtərəfli tədqiqat işi mövcud deyil və m.ö. minilliklərlə bağlı etnooykonimlər sistemli tədqiq edilməmişdir. Bu cür səthi tədqiqat

metodları problemin həllini dil, tarix, arxeologiya, coğrafiya və etnogenetik baxımdan təsdiq etmir. Bu oykonimik sistemin semantik-struktur baxımından tədqiqində əldə olunan yeni elmi nəticələr, onlardakı leksik və qrammatik qədim türk dili elementləri antik tarixçi, coğrafiyaçıların əsərləri, Assur, Hett, Axxiyava və Urartu yazıları və yazılı salnamələrdə yer alan türk tarixi ilə bağlı toponimik adlarla müqayisədə tədqiqat metodu olaraq nəzərə alınmışdır. Bu amillərə istinadən, dissertasiyada 40-a yaxın qədim və müasir türk dili lüğətləri, Naxçıvanın qədim və müasir İrəvan, Maku, Surməli və s. əraziləri, Azərbaycan, Naxçıvan, İrəvan, Türkiyə arxiv sənədlərindəki m.ö. minilliklərə aid türk tayfa adlı oykonimlər də tədqiqatın əsas metodu kimi götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardan ibarətdir:

- Naxçıvanın m.ö. minilliklərlə bağlı etnooykonimləri ərazidə yaşamış qədim türk tayfalarının dil imkanları hesabına formalaşmışdır ki, etnooykonimlərdəki qədim türk dili elementləri və bu adlar qədim dövrün tədqiqində qiymətli bir mənbədir.
- Naxçıvan ərazisindək m.ö. minilliklərlə bağlı etnooykonimlər özündə dilimizi, tariximizi, tayfa adları və mifimizi tam əks etdirir ki, bu qədim dil, tarix, coğrafiya və mifoloji inanc əlamətləri ümumtürk toponimik sistemi və antik mənbələrdə də təkrarlanır.
- Qədim Naxçıvan ərazilərinə aid etnooykonimlərdəki leksik, qrammatik dil elementləri, əski milli dil quruluşumuzu özündə qoruyan sözlər və şəkilçilərdən ibarətdir ki, bu qədim türk-Azərbaycan dilinin o dövrə aid, milli söz bazası üzərində formalaşmışdır.
- Naxçıvan etnooykonimlərinin etimoloji və linqvistik təhlili, dilçilik elmimizin qədim dövrünü sistemləşdirmək baxımından xüsusi elmi əhəmiyyət daşıyır. Bu adlar bütünlükdə əski dil quruluşumuz əsasında yaranmış qədim türk Azərbaycan etnooykonimik adlardır.
- Naxçıvan etnooykonimlərinin zəngin leksik-semantik quruluşu m.ö. minilliklərdəki prototürklərin əski mifoloji, etnoqrafik mədəniyyətini tam olaraq özündə əks etdirən əsl mənbədir. Bu vahidlərin etnolinqvistik təhlili xeyli qədim tarixi və dil faktlarını ortaya çıxarır.
- Naxçıvan etnooykonimlərindəki mifoloji baxışlar, leksik, qrammatik dil vahidlərinin Şumer, Assur, Hett yazılarında da təkrarı

As, Kuti, Hürrü, Naxər, Şu prototürk mədəniyyətinin bu xalqlara təsirini, onların hakim təbəqə kimi göstərilən xalqları idarə etdiyini sübut edir;

- Naxçıvan etnooykonimlərində türk söz sırasının m.ö. VI-I minilliklər kök-amorf və flektiv dillərə məxsus ifadə formalarının mövcudluğu türk, aqlütinativ dillərin kök-amorf və flektiv dillər mərhələsini adlayaraq tam sabitləşdiyini, onlardan öncə dil tarixində yer aldığını dilçilik yönündən tam təsdiq edir.

- Siyahıya alınarkən mənaları anlaşılmayan kimi göstərilərək təhrif edilib, siyasi məqsədlə etnooykonimlərə əlavə edilmiş yad sözlü adları elmi faktlarla bərpa edilib, onlar üzərində aparılan linqvistik, etimoloji izahlar, etnooykonimlərin türk dilində olduğunu sübut edir.

- O dövr prototürk tayfa adlarının nominasiya-adlanma üslubunda dil, məişət, inanc, amillərinin mövcudluğu, bu qədim türk mifi, dil elementlərinin yad dillərə aid edilməsi, kassi, hürrü, doray və s. türklərin Şumer, yunan, Urartu kimi əraziləri öz işğalları altında saxladıdan sonra onların dilləri və miflərinə təsirindən irəl gəlmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada problemlə bağlı salnamə, antik müəllif əsərləri, qədim yazı nümunələri, arxiv sənədləri, arxeoloji nümunələr, etnoqrafik əlamətlər, tədqiqat əsərləri, internet materialları vəhdətdə götürülmüş, müqayisəli, hərtərəfli təhlil aparılmışdır. Naxçıvan oykonimik sistemində m.ö. minilliklərlə bağlı Naxçıvan etnooykonimləri kimi iddia edilmiş adların leksik-semantik quruluşu elmi əsaslarla izah edilmiş, burada dilimizin keçdiyi tarixi təkamül yolu, bu adları yaradan prototürk tayfalarının tarixi, coğrafi ərazisi, daşıdıqları mifoloji inanclar elmi faktlarla sübut edilmişdir. Dövrlər üzrə qruplaşdırılan, etnooykonimlərin bir qisminin m.ö. minilliklərdən günümüzə qədər gəlişi ilk dəfə olaraq əski türk dil vahidləri, m.ö. VI-I minilliklərə aid arxeoloji nümunələrlə müqayisəli araşdırılmışdır. Oykonimik sistemdə m.ö. minilliklərlə bağlı Naxçıvan etnooykonimləri aid olduqları dövrlərə görə sistemləşdirilərək, onların leksik-semantik quruluşu elmi əsaslarla izah edilmişdir.

Dissertasiyada ilk dəfə Axiyava, Assur, Hett, Urartu yazılarında əski türklərə aid adlar müqayisəli təhlil edilmiş,

etnooykonimlərin yaranmasında türk mifinin adlardakı mənaları izah edilmişdir. Bu seçilmiş etnooykonimlərin yaranmasında qədim dilimizdəki leksik, qrammatik, fonetik elementlərin daşıdığı əlamətlərin ümumtürk arealında təkrarı, müasir dilimizdə izləri tədqiq edilmiş və ərazi tayafalarının şimal türkləri arasındakı yeri və tarixinin müqayisəli təhlili, ilk tarixi köçlərin qədim Azərbaycan ərazilərindən şimala doğru olduğunu sübut etmişdir. Tədqiqatda ilk dəfə bu türklərin eyni mənşə və dilə mənsubluğu, bu dil elementlərinin əksər prototürk məntəqə adlrında təkrarı elmi əsaslarla sübut edilmişdir. Adlarla bağlı tayfaların m.ö. VI-I minilliklər bu ərazilərdə yaşaması, o dövr tarixdə yeri və şimala köçləri kimi elmi faktlar da mənbələrdə yer alır. Tədqiqatın elmi yeniliyinə aşağıdakı amillər də daxildir:

- Naxçıvan oykonimik sisteminin izahında təsviri xarakterli, "ərəb-fars", "ermənimənşəli", "irandilli", "Qafqaz", "Hind-Avropa", "anlaşılmayan" dilli kimi siyasi fikirlər elmi faktlarla təkzib edilmişdir.

- Aydınlaşdırılmışdır ki, etnooykonimlər m.ö. minilliklərdə ilkin formada əsasən türk sözləri ilə birhecalı sadə və mürəkkəb quruluşda yaranmış, Assur, Hett, Urartu, Axxiyava yazılarındakı türk söz kökləri, müasir fellərimizdə məsdər şəkilçisi olmadan birhecalı olmuşdur.

- Assur, Hett, Axxiyava, Urartu yazılı mətnlərinin qədim türk sözlüklərinə istinadən tərcüməsində burada adı keçən tayfaların prototürk Azərbaycan tayfaları olub Naxçıvan ərazilərində də məskunluğu, bu dövlətlərin türklər tərəfindən yarandığı elmi faktlar əsasında tam sübut edilir.

- Etnooykonimlərin qədim türk tayfalarının adları, əski türk sözləri, onların inancındakı Tanrı adlarından yarandığı qədim mənbələr, türk sözlükləri, salnamə yazılar və tarixi faktlarla təsdiq olunmuşdur.

- Asər-Azər boylarının Azərbaycan, eləcə də Naxçıvan ərazilərində m.ö. VI minillikdən yerli sakinlər olmaqla, o minillikdə əlifbaya sahibliyi, bu əlifbanın Finikiya yazılarına təsiri Gəmiqaya, Kəlbəcər, Nüvədi, Təbriz, Qobustan yazıları ilə sübut olunur.

- Misir fironu II Tutmosun salnamə yazılarına "*Naxarain,*

*Matu Naxru"* Mitan ölkəsi kimi düşən, Naxçıvan ərazisi və Naxər türklərinin m.ö. III minillikdən də əvvəl tarixdə yer aldığı, ərazinin heç bir digər xalqa aid olmadığı bu faktlarla sübut edilir.

- Şu, kuti, lulubi, subərlərlə m.ö. IV minillikdən ittifaqda olan kas, koman, türükkü türkləri Azərbaycan və Naxçıvan ərazilərində yerli tayfalar olmuş, Akkad, Şumer yazılarına əsasən onlar Şumer ərazisini işğal etmiş, Mitan, Manna və Midiyanın qüdrətli əyaləti olan Naxçıvan etnooykonimlərində öz izlərini qoymuşlar.

- Salnamələrə m.ö. VI-I minilliklər "Matu Lulu, Hurru, Kuti" kimi düşən lulubi, kuti, hürrülər Naxçıvanda yerli türklər olması təsdiqlənmiş, erməni, gürcülərin onları özlərinə əcdad ahesab etməsi, türk dili leksik vahidləri və tarixi faktlarla tam təkzib edilmişdir.

-Öz izlərini m.ö. V minillikdən Naxçıvan ərazisi oykonimləri və əski yazılara salan, subərlərin əcdadı Şu türklərinin Azərbaycan və Elam ərazisində Şuşa adda iki şəhər saldığı elmi faktlarla təsdiq edilir.

- Herodot, Strabonun yazıları və mənbələrə istinadən Doray türklərinin m.ö. IV minilliklər Naxçıvanda yerli xalqlar olması, m.ö. II minillikdə Yunanıstanı işğal edib, Yunan mifinə Doray-tanrı adı kimi düşməsi elmi faktlarla tam sübut edilir.

- Mənbə və tarixi qaynaqlarda Kəngər və Maq türklərinin Azərbaycan və Naxçıvan ərazisində m.ö. IX-VIII yüzilliklərdə olması konsepsiyası elmi yolla təkzib olunmaqla, onların m.ö. IV minillikdən tarixi proseslərdə iştirakı Şumer yazıları ilə təsdiqlənir.

- Oykonimlərin etimoloji izahları zamanı iltisaqi dillərin amorf-kök və flektiv dillərdən xeyli əvvəl yarandığı dünya dillərinin tarixi təkamülü və dil faktları ilə sübut olunur.

- Dissertasiya işi yazılarkən istifadə olunan yüzdən yuxarı elmi mənbə ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmiş, bir çox məqamlarda antik əsərlərin tərcümə zamanı təhrif olunduğu sübut edilmişdir.

- Bu problem dissertasiyada ideoloji versiyalardan kənar, qərəzsiz, mövcud həqiqətlərə olduğu kimi yanaşma prinsipi əsasında ilk dəfə sistemli şəkildə tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Naxçıvan və ondan zorla qoparılan ərazilərimizdə etnooykonimlərin tədqiqi, bu

ərazilərin 60-a yaxın prototürk tayfaları və onların varislərinə aidliyinin elmi təsdiqi xüsusi elmi əhəmiyyət kəsb edir. Dissertasiyada elmi faktlarla m.ö. VI-I minilliklərlə aidliyi sübut olunan etnooykonimlərlə bağlı tayfaların ərazidəki Mitan, Aratta, Manna, Midiya, Atropatena və s. dövlətlərə aidliyi konsepsiyası bu istiqamətdə yazılan yeni əsərlərə də salına bilər. Azərbaycan və qədim Naxçıvan ərazilərində prototürklərin yerli xalqlar olması faktları təkcə bu ərazinin tarixi, coğrafiyası və qədim dilinin tədqiqinə deyil, xalqımızın əsl tarixi, coğrafiyası və dilinin öyrənilməsinə yeni elmi istiqamət verə bilər. Dissertasiyada əldə edilmiş yeni elmi nəticələrə Azərbaycanın tarixi, etnogenezi, ilkin dil qruluşu, dil və tarixinə aid dərsliklər yazılarkən, ali təhsil məktəblərində seçmə fənlərin tədrisi zamanı, mühazirə və xüsusi kursların keçirilməsində də istinad edilə bilər.

**İşin aprobasiyası və tətbiqi**. Tədqiqatın mövzusu AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 13 yanvar 2006-cı il tarixli iclasında (protokol № 01) təsdiq edilmiş, elmi məsləhətçi filologiya elmləri doktoru, professor Adil Məhəmməd oğlu Babayev təyin olunmuşdur. Mövzu Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik üzrə Problem Şurasının 06 iyul 2006-cı il tarixli iclasında qeydə alınmışdır. İş AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsində yerinə yetirilmiş, dissertasiyanın əsas müddəaları müəllifin 6 monoqrafiyasında, 4 ensiklopedik və çoxcildlik elmi əsərlərdə, 90-dan yuxarı elmi məqalədə öz əksini tapmışdır. Məqalələrdən 27-si xarici ölkələrin nüfuzlu nəşrlərində çap olunmuşdur. Dissertasiyanın mövzusuna dair 10-dan artıq beynəlxalq konfransda, o cümlədən 13-15 dekabr 2011-ci il tarixdə Türkiyənin İğdır şəhərində keçirilən "II Uluslararası Aras havzası" simpoziumunda "Nahçıvan ve Iğdır yörelerinde prototürkler ve tarihi köçler" 23-24 oktyabr 2020-ci il tarixində Türkiyənin Qars şəhərində keçirilən "VII.Uluslararası Co-cuk ve Genclik Edebiyyat" simpoziumunda "Eski kaynaklarda çocukları koruyan prototürk Tanrıları, onların Nahçıvan ve Umumtürk coğrafi adlarında izi" kimi mövzularda məruzələr söylənilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və

Ədəbiyyat İnstitutunun Onomastika şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş 10 səhifə – 20 134 işarə, I fəsil 17 səhifə – 33258 işarə, II fəsil 90 səhifə – 175633 işarə, III fəsil 94 səhifə – 179997 işarə, IV fəsil 11 səhifə – 19300 işarə, V fəsil 23 səhifə – 41452 işarə, nəticə 10 səhifə – 19679 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla ümumilikdə dissertasiya 496916 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"**ində işin aktuallığı və işlənmə dərəcəsi, işin məqsəd və vəzifələri, obyekti və premeti, tədqiqatın metodları müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı və işin quruluşu öz əksini tapmışdır.

**"Naxçıvan etnooykonimlərinə dair tarixi faktlar və onlarin tədqiqi istiqamətləri"** adlanan I fəsil 6 paraqrafdan ibarət olmaqla, m.ö. minilliklərlə bağlı oykonimlərin yeri, tədqiqi kimi məsələləri əhatə edir. I fəslin **"1.1. Naxçıvan etnooykonimlərinin tədqiqi istiqamətləri"**, "**1.2. Naxçıvan etnooykonimlərinin m.ö. minilliklərlə bağlılığını təsdiq edən elmi faktlar**" və **"1.3. Qədim mənbələrdə Naxçıvan və onunla bağlı etnooykonimlər"** paraqraflarında Naxçıvan ərazisi oykonimlərinin m.ö. minilliklərlə bağlılığı, qədim mənbələrdəki Naxçıvanla bağlı məntəqə adları elmi faktlarla təsdiq edilmişdir. Burada m.ö. III-I minilliklərdə Naxçıvan ərazisinin Naxarin ölkəsi kimi Aratta, Mitan, Manna, Midiya dövlətlərinın qüdrətli əyaləti olması da elmi faktlarla sübut olunur[16]. Sovetlər dövrü bu dövlətlərin tarixi, dili və adlarının İ.Dyakonov, E.Qrantovski, Q.Melikişvili,

---

[16] Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B. Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı, –1993. – s.341-345, 356-358; История Древнего Востока. От ранних государственных образований до древних империй / – Москва: ИФ "Восточная литература" РАН, –2004. – с. 335; История Востока. Т. 1. Восток в древности / – Москва: Восточная литература, РАН, –1997. – с. 221-236.

Q.Avetisyan, M.İvanov kimi əcnəbi alimləri tərəfindən təhrif olunması elmi baxımdan təkzib edilmiş, bu tarix, dil və adların türklərə aidliyi elmi faktlarla sübut edilmişdir[17]. Dissertasiyada Naxçıvanın oykonimik adlarındakı leksik vahidlərin, eləcə də qədim tayfa adlarının türklərə məxsusluğu, antik müəlliflərin əsərləri, Assur, Hett, Axxiyava, Uratu, Misir yazıları və salnamələrdə təkrarı elmi faktlarla sübut edilmişdir[18]. I fəslin **“1.4. Ərəb-fars mənşəli hesab edilmiş etnooykonimlər”** paraqrafında Naxçıvan MR ərazisində arxiv sənədləri və haliyədə mövcud olan şəhər, qəsəbə, kənd adlarının ərəb-fars dilində izahları qədim türk dili lüğətləri ilə tam təkzib olunur. Burada Naxçıvan adı fars dilində “ov yeri”, Əbrəqunus, Disər kimi məntəqə adları bölünərək ərəb və fars sözləri kimi izah edilmişdir[19]. Lakin adları formalaşdıran leksik vahidlər Midiya, Manna, Atropatena dövlətində, yuxarıda da qeyd etdiyimiz kimi, m.ö. IV-I minilliklərin toponimləri və tanınmış şəxs adlarında təkrarlanmaqla bu fikirləri tamamilə təkzib edir. Təbii ki, o zman ərəb və farslar tarix səhnəsində olmamışdır. Bundan başqa Behrud, Kirna və s. sözlər də fars dilinə aid edilmiş, lakin mənaları izah edilməmişdir[20]. Burada qədim türk sözü *na*-“verdi, bağışladı” feli ilə Kırna məntəqə adı “Kiur tanrısının verdiyi” mənasında türk dilində izah olunur. V.Piriyev Gil/Gilak tayfa adından yaranan qədim Gilan-“Gil yurdu” mənasındakı şəhər adını Kiran kimi izah edib, onu fars çarı Kirin adına bənzədir. Burada da heç bir sözlüyə istinad yoxdur. Düdəngə adı fars və Azərbaycan dillərində “İki döngə”, Dizak fars dilində “İki şax”, Didivar fars və türk dillərində “divar” və “var” kimi izah edilir[21]. Təbii ki, adlar yarı

---

[17] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2017. – s. 238-256.

[18] Yenə orada, – s. 16-20.

[19] Allahyarov, K.A. Naxçıvan sözünün mənşəyi və mənası // –Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, –2002. № 14, s. –27-30; Budaqov, B.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti / B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. –Bakı: Oğuz eli, –1998. – s. 37-45.

[20] Севортян, Э.В. Этимологический словарь тюркских языков. Т. I. / Э.В.Севортян. – Москва: Наука, –1974. –777 с., s. 60-69.

[21] Дрвнетюркский словрь / –Ленинград: Наука. –1969. –s. 179; Грей, Джон. Ханаанцы. На земле чудес ветхозаветных / Джон Грей. – Москва: Центрполиграф, – 2003. – s. 84;

fars, yarı türk dilində olmur.

Bu cür izahlara ərazidə Sak, Çul, Kol, Maq, Subi, Şirak türk boylarının adını daşıyan oykonimlərdə də səthi etimoloji izahlar olaraq rast gəliruk. Lakin biz türk dili sözlüklərinə baxdıqda *Ərəfsaq* (Ərəfsə)-"sak ərlərinin evi", *Culfa*-"Çul bəyləri", *Kilit*-"Kol yurdu", *Muğancıq Mehrab, Muğancıq Müslüm* "Muğ/manqlara məxsus" ("mehrab", "müslüm" sözləri sonrakı əlavələrdir), *Sirab*-"Şirlərin evi", *Zeyvə*-"Sas bəyi" (saspirlər) kimi məntəqə adları tam olaraq türk dilindədir. Əcnəbi və bəzi azərbaycanlı alimlər isə, qədim türk dili sözlükləri nəzərə alınmadan bu adları səthi izahlarla ərəb-fars dillərinə aid etmişlər[22]. Tərəfimizdən sözlüklərə istinadən apardığımız müqayisəli təhlillər onların türk dilində olduğunu tam sübut edir.

Azərbaycan xalqının mənşəyi və toponimlərinin təhrifinə daha çox M.İvanov, İ.Dyakonov, E.Qrantovcki, Ə.Murzayevin yazılarında rast gəlirik. Onlar Strabona istinadən Azərbaycan ərazisindəki *rut*-"tikili", *ak*-"uca" mənalı "Uca tikili"-Rutak oykonimini fars dilinə aid edirlər. Bir qrup Azərbaycan alimləri də öz əsərlərində sovet dövrü bu yazılara istinadən əcnəbilərin "farsmənşəli" konsepsiyalarını təkrarlamışlar[23]. Bu cür yazılarda Kilit-"dağ üstündə qala", Bist-"vadi" kimi iran-fars sözləri ilə izah edilir. Tərkibində *van, an, man, kan, ab, qiş, sanq, sar* kimi türk leksik vahidləri olan sözlərimiz də "ərəb-fars", "erməni" mənşəli kimi iazah edilmişdir. Dissertasiyada bütün bu türk tayfa adları və qədim türk dili elementləri ilə yaranmış adların ərəb-fars, erməni dillərində olmadığı qədim türk sözlüklərinə istinadən dil faktları ilə tam sübut edilmişdir[24].

**"1.5. Təsviri xarakterli etimologiyalar"** və **"1.6. Erməni mənşəli hesab edilmiş etnooykonimlər"** adlı I fəslin bu paraqraflarında da bu cür təhlillər, dil və tarixi faktlarla təkzib edilmişdir. Burada Naxçıvan oykonimlərinin müasir dil vahidləri ilə təsviri

---

[22] Yusifov, Y.B. Qədim Şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı, –1993. – s.168, 191-195.

[23] Мурзаев, Э.М. География в названиях. / Э.М.Мурзаев. –Москва: Наука, –1979. –168 s., s.57; Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / T.M.Əhmədov. – Bakı: Bakı Universiteti nəşriyyatı, –1991. – s.76-120.

[24] Rzayev, F.H. Ərəb, fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri // – Bakı: Azərbaycan onomastikası problemləri. ADPU, – 2002. № X, – s. 85-94.

izahları təkzib edilməklə, onların qədim türk tayfa adlarından yarandığı elmi faktlarla sübut edilmişdir. Bu cür izahlar sovetlər dövrü yazılmış əsərlərə istinad edən Q.B.Budaqova, Q.Qeybullayev, Q.Məşədiyev, T.Əhmədov kimi görkəmli alimlərimizin yazlarında yer alır. Burada *Dor* kəndi-"Dərədə yerləşən kənd", "Dar keçiddə salınan kənd", *Günnüt*-"Günlərin yaşadığı yer", *Araluk* -"Aralıqda yerləşən kənd", peçeneqlərin Bula qolu adından yaranan *Biləv*- "oba yeri" yarı fars yarı türk dilində izah edilir. Gün tayfa adına isə heç bir mənbə və tədqiqatlarda rast gəlinmir. Bununla bərabər Sak tayfa adlı Tan+sak-*Danzik* məntəqə adı "Dan yeri", Şu/Şub tayfa adlı *Çomaqdur*-"Çomak tutar", Kas tayfa adlı *Keştaz*-"Keşlə elinin düzü" kimi izah olunurlar[25]. Lakin türk dillərinə xas ç≈s, m≈b, u≈o kimi səsəvəzlənmələr nəzərə alınarsa, Çomaktur-"Uca Sub oğlu", Keştaz-"Kas düzü" mənalarındadır. Bu adların əski türk tayfa adları ilə formalaşması və tam türk dilində olduqları çoxsaylı sözlük və tarixi faktlarla təsdiq olunur[26]. Belə izahlar As tayfa adlı Aza, Azad, Azardey-"çay kənarı məkan", Sak adlı *Sanqurey*-"Krım zədəganın oğlu Şanigirey salan kənd" kimi izah edilir. Bu Bənənyar-Bərə niyaz-"Çay sahilində Niyaza məxsus yer", Anaqut-"Ana kənd" və s. adların izahlarında da təkrarlanır[27].

Bütün bu adların kas, şu, dor, aral və s. türk tayfaları və Anu tanrı adından yarandığı mənbə, sözlük və tarixi dil fakları ilə tam sübut edilmişdir[28].

"Erməni mənşəli hesab edilmiş etnooykonimlər" paraqrafında isə yanlış izahlarına görə E.Murzayev, İ.Dyakonov, M.İvanov, V.İvanov kimilərin qeyri-elmi yazılarına münasibət bildirilir. Onlar

---

25 Azərbaycan toponimləri. Ensiklopedik lüğət. – Bakı: Azərbaycan Ensiklopediyası. –1999. – s. 34.

26 Rzayev, F.H. Qədim Şərur oykonimlərinin mənşəyi / F.H.Rzayev. – Bakı: Nurlan, –2006. – s. 196-199; Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H. Rzayev. –Bakı: ADPU nəşriyyatı.– 2013. – s. 42-45.

27 Bağırov, A.N. Naxçıvan oykonimləri / Bağırov A.N. – Bakı: Nurlan, –2008. – s. 36-39, 53-63, 89, 91 -114, 123, 129; Bağırov, A.N. Onomalogiya problemləri. II c. / A.N.Bağırov. –Bakı: Elm və təhsil, –2012. – s. 95- 105, 136, 142.

28 Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. –-Bakı: ADPU nəşriyyatı, –2013. – s. 42-45.

qədim türk Surikat-"Qüvvətli Sirlər-Siraklar" oykonimində *kat*-"qüvvə" sözünə -s hərfi əlvə edib, *kats*-sək şəkilçisi kimi, Aran+çav- "Şöhrətli ər" sözünə -h samiti artırıb *haran*-"daş", *çov*-"su", eləcə də *kan, bert, kert, van, sar/sır* və s. söz sonluqlarını erməni dilinə aid edirlər[29]. Lakin "Sur/Şir" sözü Sirak türk tayfa adı və Şar türk işıq tanrısı idi[30]. Bunlara istinad edən Q.Budaqova Der kənd adını "kilisə", Dar dağı adını "Monastr, Keşiş dağı", *kul*-"ulu", "böyük", *uk*-"oğul, varis" sözlərini k≈q, k≈x səsəvəzlənməsi ilə erməni dilinə aid etmişdir[31]. Lakin erməni dilinə aid edilmiş *berd/bert, kan, kert/keld, şen, zor, van/ban* sözləri qədim türk sözlüklərində türk dilindədir. Oğuz və Qıpçaq türklərində "van" sözü "vanq" kimi -nq qoşa samiti ilə dəniz-dəngiz, donuz-donquz kimi işlənmişdir[32]. Bu leksik vahidli *Əznəberd* -"As çarı" və ya "As qalası", *Aranberd*-"Ərənlərin çarı" və ya "Ərənlərin qalası", *Keçəzor*-"Şar kasları" kimi onomastik vahidlər türk dilindədir. Coğrafi arealda adlara qoşulan *vanq/vəng* sözü ərazilərimizdə *bəngü taş*-"yazılı daşlar"a aid idi və 1960-1965-ci illər ermənilər vənglərdən 123 yazılı daşı İrəvana aparmışlar.

Biz Orxon-Yenisey və F.Ağasıoğlunun yazılarında *vəngü/bəngü* sözünə "yazılı", "daş" sözü ilə "yazılı daş" mənasında olması elmi faktlarına rast gəlirik. Orxon-Yenisey yazılarında "*Bəngü taş tokıtdım, bitidim*"-"Abidə daşı tikdirdim, yazdırdım" ifadəsinə rast gəlirik[33] və "vəng" sözü burada yazılı daşdır və türk dilindədir.

Mənaları "Ərəb-fars", "erməni" yönlü və təsviri izahlarla araşdırılan Naxçıvan etnooykonimləri özündə prototürk tayfa adlarını daşımaqla *kan/xan, van, şen* qədim türk sözlərini də qoruyur. Bu söz-

---

29 Мурзаев, Э.М. География в названиях / Э.М.Мурзаев. –Москва: Наука, –1979. – s. 113.

30 Yusifov, Y.B. Qədim Şərq tarixi / Y.B.Yusifov. –Bakı: Bakı Universiteti nəşriyyatı, – 1993. – s. 304-305.

31 Budaqova, Q.B. Naxçıvan Muxtar Respublikasının toponimləri / Q.B.Budaqova. –Bakı: Elm, –1998. – s. 25-31, 37.

32 Дрвнетюркский словрь / –Ленинград: Наука. –1969. – s. 81, 135, 297; Ширалиев, М.Ш. Кыпчакские элементы в Азербайджанском языке // Исследование по грамматике тюркских языков. – Москва: Наука, –1965. – с. 5-17.

33 Cəlilov, F.A. Azərbaycan dilinin morfonologiyası / F.A.Cəlilov. – Bakı: Maarif, –1988. – s. 87

lərin türklərdən erməni dilinə keçməsi *Arzakənd-Arzakan, Astazur-Şvanidzor, Avdavağalı-Vağaşen, Samanqar-Geğa-kert, Buzovan-Bzovan* kimi adlardakı türk dili elementləri ilə sübut olunur. Göstərilən "şen", "kan" sözlərinin türk dilinə aidliyini, ermənilərin adları *Buğdaşen*-Baqravan, *Culoykan*-Beniamin kimi əvəzləmələri[34] də sübut edir. Bu kimi faktlar erməni dilinin Azərbaycan-türk dilindən də formalaşdığını tam təsdiq edir ki, onlar bu yolla özlərinə "qədim tarix" yaratmağa cəhd etmişlər.

**"Naxçıvan ərazisində m.ö. VI-III minilliklərlə bağlı etnooykonimlər"** adlanan II fəsil 15 paraqrafdan ibarət olmaqla, burada m.ö.VI-III minilliklərdə tarix səhnəsində olmuş as, naxər, türükkü, kuti və s. 15 tayfanın tarixi, ərazisi, dili, onlarla bağlı etnooykonimlər elmi yöndən araşdırılmışdır.

Bu fəslin **"As prototürkləri ilə bağlı etnooykonimlər"** adlı I paraqrafda As adı ilə bağlı 42 etnooykonim tədqiq edilmiş, As türkləri yalnız C.Cəfərovun yazılarında yer almışdır. Asərlər Azərbaycanda m.ö. VI minillikdən öz adı, yazısı və dövləti olan türklər olmuşlar. Bu adlarda və Azərbaycan dövləti adında Asər tayfa adının siyasi məqsədlə ərəb-fars dilində *Azər*-"od" sözü ilə izahı, dissertasiyada tarix və dil faktları ilə təkzib edilmişdir[35]. As tayfa adı, ər-"igid", bəy, *qan/kan*-"məkan" qədim türk sözlərindən yaranmış As+ər+bay+kan-"Asər bəylərinin məkanı" adındakı qədim sözlər Beyləqan, Arbatan, Bəydil və s. adlarda da təkrarlanır ki, bu elmi faktlarla tam sübut edilmişdir[136].

Herodot, K.Ptolomey, Plutarxın yazılarında Azərbaycanın Ön Asiya, Anadolunun Kiçik Asiya kimi adlanması, As şamanlarının m.ö. minilliklər yunan hakimlərinə məsləhət verdiyi elmi faktlarla sübut edilmişdir.[37] Strabon etrusk, turdetan, bastul və qarqarları As

---

[34] Tarixi adlara qarşı soyqırımı /– Bakı: Təhsil, – 2006. – s. 13-14, 24.

[35] İrəvan əyalətinin icmal dəftəri / – Bakı: Elm, – 1996. – s.159-183; Cəfərov, C.İ. Milli etnik yaddaşın izi ilə / C.İ.Cəfərov. – Bakı: Səda, – 2005. – s. 97-118.

[36] Rəcəbov, Ə.Ə. Orxon-Yenisey abidələri / Ə.Ə.Rəcəbov, Y.İ.Məmmədov. – Bakı: Yazıçı, – 1993. – s. 10,18; Малый атлас мира. – Москва: Картография ГУГК, – 1985. – с. 56-59, 217.

[37] Геродот. История. Пер. Г.А. Стратановского / Геродот. - Ленинград: Наука, -1972. -599 с., I 19, 46, 95, 111; III 62; IV 45; VI 69; Плутарх. Избранные жизнео писания. Т. 2 / - Москва: Правда, -1990. – XX, s. 127-128, 236, XLVII

nəsli hesab edib, m.ö. IV minillikdə Araz çayı boyunda "Azar" ölkəsi və As yazısı olduğunu, T.Livi yazılarında m.ö. III əsrdə Romada asların adına qızıl pulların kəsildiyini, onların böyük güc olduğunu göstərir[38].

**"2.2. Naxər prototürkləri ilə bağlı etnooykonimlər"** adlı bu paraqrafda K.Allahyarov, R.Məmmədov, M.Elli, Q.Budaqova və b. alimlərin Naxçıvan" sözünü Nuhla, *"ov yeri", "sərt yer", "naqqal", "tərs", "xoş su", "naxçi", "yurdda qalan", "Noh adamı"* kimi mənalarda türk, Urartu, ərəb-fars, kazıkumık və s. dillərlə izahı müqayisəli təhlil edilib, Naxçıvan oykonimləri əsasında onların türk dilində olduğu sübut edilmişdir[39]. Burada keçirilən beynəlxalq konfrans və simpoziumlarda İ.Həbibbəyli, İ.Hacıyev, Y.Mahmudov, N.Cəfərov, A.Bağırov, Ə.Quliyev, Q.Qədirzadə, V.Əliyev, N.Xudiyev, F.Səfərli kimi alimlərin məruzə və yazılarında ilk dəfə Naxər tayfa adı Nuhər, Naxçıvan-Nuhçıxan kimi izah edilmiş, naxərlərlə bağlı 13 etnooykonim qədim sözlüklərə istinadən tədqiq edilmişdir[40].

Bu fəslin **"2.3. Turukku-türükkü prototürkləri ilə bağlı etnooykonimlər"** adlı paraqrafında isə, bu tayfalar tədqiq edilmiş, S.Klyaştornı, V.Şot, V.Livşiç, V.Radlov, V.Bartold yerli tayfaları "gəlmə" olaraq tanıtmış, S.Kiselyev, A.Bernştem, İ.Dyakonov, R.Frayın, arxeoloji abidə və adətlərə görə onların "türk" olmadığını yazmışlar. Bu paraqrafda fikirlər təhlil edilmiş, "Avesta", Hett, Assur yazıları əsasında Urmiya gölü ətrafında hürrü, şu, şubartu, kuti, lulubilərlə turukkilərin birliyi, Assur-Vavilon mənbələrində isə ***mâtu tu-ru-ki-i*** kimi yazılışı və bu adın türk tayfaları olduğu yetərli tarixi

---

[38] Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского / – Москва: Наука, – 1964. – XI, 14, 3, s. 137-138.

[39] Axundov, A.A. Naxçıvan sözünün mənşəyi // Naxçıvan tarixinin səhifələri – Bakı: ADPU, – 1996. – s. 47; Yaşar Kalafat. Türk Mitolojisinde Kurt / – Ankara: Berikan Ofset Matbaa, – 2012. – s. 42.

[40] Həbibbəyli, İ.Ə. Nuh peyğəmbər və dünya tufanı toplusu / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan / İ.Ə.Həbibbəyli. – Naxçıvan: Əcəmi, – 2009. – s. 55-68; Mahmudov, Y.M. Dünya tarixində Naxçıvan: Yer kürəsində həyatın başlandığı yer / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan / Y.M.Mahmudov. – Naxçıvan: Əcəmi, – 2009. –s. 17-30.

faktlarla sübut edilmişdir[41]. Naxçıvan ərazisində bu tayfa adı ilə bağlı 10 etnooykonim struktur-semantik baxımdan izah edilmişdir.

II fəslin **"2.4. Kuti prototürkləri ilə bağlı etno-oykonimlər"** paraqrafında kutilərlə bağlı dil, tarix və etnooykonimlər sistemli araşdırılmış, İ.Dyakonov E.Qrantovski, Q.Hüzinq, R.Girşman kimi alimlərin əsərləri müqayisəli təhlil edilmişdir. Burada kutilərin ərazisi və dili elamit, fars, kassit, lullubi, kaspi, "Zaqro-Elam" dilli Qafqaz tayfası kimi verilsə də, onların türk olduğu elmi faktlarla sübut edilmişdir[242]. Bu yanlış fikirlər Y.Yusifov Q.Qeybullayev və F.Ağasıoğlunun yazılarında da ərazi və çar adlarına istinadən dil faktları ilə təkzib edilmişdir[43]. Mənbələr bu tayfaların türk olub m.ö. III minillikdə Aratta, Azərbaycan dövlətində güc olduğunu, urartuların "kuti" adlanması, III Salmansar, Asarxaddon və II Sarqonun yazılarındakı Kuti adının türk olduğu elmi faktlarla təsdiq edilir. Onların Elam, Akkad, Assuru 100 il işğalda saxladığı tarixi faktlarla sübut edilməklə, kutilərlə bağlı 10 etnooykonimin semantik-struktur tipləri izah edilmişdir[44].

II fəslin "**2.5. Lulubəy prototürkləri ilə bağlı etnooykonimlər"** paraqrafında da lulubilərlə bağlı 9 oykonim sistemli araşdırılmış, onların m.ö. IV-III minilliklər Naxçıvanla bağlılığı faktlarla sübut edilmişdir. İ.Dyakonov və "Ümumdünya tarixi"ndə isə, onlar m.ö IV-III minilliklərdə, Azərbaycanın Urmiya və Araz boyu ərazilərdə dili naməlum tayfa kimi verilmişdir.[45]

V.Avdiyev, Q.Qiorqadze və Q.Melikişvilinin yazılarında lulubəylər Dəclə, Fərat çaylarından yuxarıda yaşayıb, Mesopotamiya

---

[41] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2013. – s. 129-149.

[42] Грантовский, Э.А. Ранняя история иранских племен Передней Азии / Э.А. Грантовский. – Москва: Восточная литература, – 2007. – s. 280.

[43] Qeybullayev, Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən / Q.A.Qeybullayev. – Bakı: Azərnəşr, – 1994. – s. 15-19; Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universitet nəşriyyatı, – 1993. – s. 79-85

[44] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2013. – s.149-180.

[45] Всемирная история. Т. I. / – Москва: Госиздат, – 1956. – s. 192; Дьяконов, И.М. Языки древней Передней Азии / И.М.Дьяконов. – Москва: Наука, – 1967. – s.11.

ilə mədəni əlaqədə olan, Bağdad, Həmədan arası Sarpul, Suz və s. ərazilərdə yazılı abidələri olan, Naramsin büst yazılarında adı keçən tayfalar kimi göstərirlər. Bu ərazilər isə m.ö. III minillikdə Naxər ölkəsinin daxil olduğu Mitan dövləti ərazisi idi. Müəlliflər lulubların Ulmı ölkəsinin adını çəksələr də, Manna, lulubi, elam, kuti, kasları Urmiya ərazisində gürcülərin əcdadı kimi verirlər.[46] Bu yazılarda türk-Azərbaycan dilində olan *Aran Ha-pilanni*-"yaraşıqlı ərlər ölkəsi", *Arip Hurra*-"hörmətli hürrü əri", *Anum-hirbi*-"mən Anu tanrısının hürrü bəyi", *Mama*-"ana" (türklərdə gəlinlə gedən yengə) və s. sözlər də gürcü dilinə aid edilmişdir[47]. Lakin gürcülər XIX əsrdə Metix-Matay türk qalası ətrafında kiçik knyazlıq idi və onlar m.ö. III minillikdə tarix səhnəsinə çıxmamışdılar. "Sovet tarixi", "Tarixi ensiklopediya" və Q.Qiorqadzenin yazılarında Urartu dilində *Mâtu Lulu*-"Lulu ölkəsi" "düşmən, ölkə" kimi təhrif edilsə də, m.ö. III-II minilliklərə aid mənbələrdə bu fikir təkzib edilmişdir [48].

**"2.6. Hürrü prototürkləri ilə bağlı etnooykonimlər"** adlı II fəslin 6-cı paraqrafında, m.ö. IV və III minilliklərdə türük, kuti, lulubi, naxərlərlə birgə, Naxçıvan ərazisində yaşamış hürrülər tədqiq edilir[49]. Q.Vilhelm və Q.Sinilo Akkad, Hett yazılarına istinadən hür-rüləri şərqdə əsas güc kimi göstərib, onların Zaqafqaziyadan Yaxın Şərqə m.ö. IV minillikdə, Şimali Mesopotamiya, Kiçik Asiya, Suri-ya, Fələstin, Zaq-ros ərazilərinə gəlişini m.ö. II minilliyə aid edirlər. Lakin Q.Melikişvili N.Yankovski, B.Piotrovski, İ.Dyakonova istina-dən Mitan, Aratta, mannalıları hürrülər, onların ərazisini isə "Nairi"

---

[46] Herodot. Tarix. I hissə / -Bakı: Azərnəşr, – 1998. –V 52; Авдиев, В.И. История древнего Востока / В.И.Авдиев. – Москва: Высшая школа, – 1970.– s. 23-27, 129, 212, 219; Георгадзе, Г.Г. Хетты и хурриты по древнехеттским текстам // Вестник древней истории / Г.Г.Георгадзе. – Москва: Наука,– 1969. №1, – с. 71-168.

[47] Qeybullayev, Q.A. Qədim türklər və Ermənistan / Q.A.Qeybullayev. – Bakı: Azərnəşr, – 1992. – s. 24.

[48] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2013. – s. 180-211.

[49] Yusifov, Y.B. Qədim Şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 1993. – s. 52; Всемирная история. Т. I, / – Москва: Госиздат, – 1956. – s. 192.

kimi Gürcüstana aid edir[50]. O tarixdə isə hələ gürcülər yox idi. İber boyları da müasir gürcülər deyil, Turdi türklərinin varisləri idi və m.ö. III minillikdə şimali Mesopotamiya, Urmiya gölü ətrafında Mitan çarlığı qurması, bu ərazinin Naxər-Naxçıvan ölkəsi olduğu da faktlarla sübut edilir. Mənbələr onların Mitanla bərabər Hett, Assur, Elam, Kərkük ərazilərində, Hürrü dilində minlərlə sənədlərdə öz adlarını yaşatdığını yazır. Bu yazılarda adını *Mâtu Hur-Ri*-"Hürrü ölkəsi" kimi saxlayan,[51] Naxçıvan ərzisində hürrülərə aid 13 oykonimdəki əski dil vahidləri də onların türk olduğunu tam sübut edir.

**"2.7. Kas/Kassi prototürkləri ilə bağlı etnooykonimlər"** paraqrafında m.ö. IV minillikdən tarix səhnəsində olan kaslarla bağlı Kisək, Keştaz, Kaşka kimi 26 etnooykonim müqayisəli təhlil edilmişdir. "Ümumdünya tarixi"ndə, Y.Markvart, Q.Huzinq, İ.Dyakonovun yazılarında göstərilir ki, kaslar elam, turukku, kuti, subər, lulubi, hürrülərlə bərabər, m.ö. 1741-ci ildə şimaldan gəlib Babilistanı tutur, burada çarlıq qurur, 300 il əraziyə hakim olurlar. Onların çar rütbəsi "xan", yurdu-"bat" kimi türk dilində olsa da, "irandilli", Hind-Avropa dilli kimi təhriflər elmi faktlarla təkzib edilib, onların türk tayfası olduğu sübut edilmişdir[52]. Herodot və Strabonun yazılarında "Kassi" ayrıca ölkədir, onlar Kserksin Elladaya hücumu dövrü midiyalılarla birgə 13 min oxçu ilə "zərbə qüvvəsi"dir, partagen elamlarla qonşudur, əraziləri Kaspi qapılarına çatır. Burada kaslar m.ö. XVIII əsrdə şimal və cənub Mesopotamiyanı işğal edib, paytaxt şəhəri Terke olmaqla Xanan çarlığı yaradırlar[53], burada türk kaslar midiyalıdır və

---

[50] Вильхельм, Г.Г. Древний народ хурриты / Г.Г. Вильхельм. – Москва: Наука. – 1992. – с. 27; Синило, Г.В. Древние литературы Ближнего Востока и мир Танаха (Ветхого Завета) / Г.В.Синило. – Минск: «Экономпресс». – 1998. – s.11.

[51] Cəfərov, C.İ. Milli etnik yaddaşın izi ilə / C.İ.Cəfərov. – Bakı: Səda, – 2005. – s. 104-108; Всемирная история. Т. I. /– Москва: Госиздат, – 1956, – s. 316, 392.

[52] Всемирная история. Т. I. / – Москва: Госиздат, – 1956. – s. 299-300; Дьяконов, И.М. Ассиро-вавилонские источники по истории Урарту // Вестник древней истории. – Москва: Наука, – 1951. № 2, – с. 265- 266.

[53] Геродот. История. Пер. и примеч. Г.А. Стратановского / – Ленинград: Наука, – 1972. – VII, 62, 210; Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского / – Москва: Наука, – 1964. – 3; XI, XII, 4; XI, XIII, 6; XVI, I, 13, 17; XVI.

bu izlər Boğazköy, Eblait yazılarında da qalmuşdır[54].

**Fəslin "2. 8. Şu-su prototürkləri ilə bağlı etnooykonimlər"** və **"2. 9. Subar prototürkləri ilə bağlı etnooykonimlər"** adlı paraqraflarında ilk dəfə Naxçıvanda yerli xalqlar olmuş Şu və Subər türkləri ilə əlaqədar etnooykonimlər tədqiq edilmiş, onlarla bağlı Şudagen, Şuşad kimi 18 etnooykonimin etimoloji izahı verilmişdir. Şu, subərlərin tarixi və dillərini Herodota istinadən rus alimi A.Abraşkin "rusların əcdadı" kimi verib, m.ö. III minillikdə Mesopotamiyaya Şubartu ərazilərinə gəldiklərini yazmışdır. B.Rıbakov, Y.Şapov, M.Tixomirov və b. isə ilk "Kiyev Rus" dövlətini XII əsrə aid etmişlər[55]. Mənbələr m.ö. III minillikdə Ur şəhərinə elam və şuların hücumunu, m.ö. II minillikdə isə şimali Mesopotamiyada subər, kuti, lulubi, türükkü, kassi boyları ilə ittifaqını göstərir. N.Marr, İ.Dyakonov Şu və Subər dilini Hürrü, Qafqaz dillərinə yaxın fərqli dil kimi göstərir, mənbələrdə isə hürrülər və şular m.ö. IV-III minilliklərdə verilir, m.ö. II minillikdə Mitan dövlətini qururlar[56]. Bu fərqli fikirlərin əksinə Herodot, F.Kırzıoğlu, B.Ögəl və digər mənbə yazıları bu boyların Siciliya adasını Sukel-"Ulu Şu" adlandırıb, Midiyadan gəldiyini sübut edir. Burada Şuların uyğurlara yaxın "Şu" şəhəri saldığı, Elam dövlətində Şuşa və Şu paytaxt şəhərlərinin olması tarixi faktlarla təsdiq edilir[57].

---

[54] История письма: Эволюция письменности от Древнего Египта до наших дней / Пер. с немецкого Mjcrdf: Эксмо; – СПб: Terra Fantastica, – 2002. – s. 121-139, 273, 291.

[55] Абрашкин, А.А. Скифская Русь. От Трои до Киева / А.А.Абрашкин, – Москва: Вече, – 2008. – s. 41; Рыбаков, Б.А. Рождени Руси. / Б.А. Рыбаков. – Москва: АиФ Принт, – 2003. – s. 335-346, 411, 424.

[56] Марр, Н.Я. Основные вопросы истории языка. Избранные работы, т. 4. / Н.Я.Марр. – Москва-Ленинград: Гос. соц.-экон. изд-во, – 1937. – s. 131; Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 1993. – s. 89-91.

[57] Геродот. История. Пер. и примеч. Г.А Стратановского. – Ленинград: Наука, – 1972. – I 24, 188; III. 64, 128; Azərbaycan tarixi. – Bakı: Azərnəşr, – 1994. – s. 80-81; Kırzıoğlu, F.M. Yukarı Kür ve Çoruk boylarında Kıpçaklar / F.M.Kırzıoğlu. – Ankara:Türk Tarih Kurumu Basımevi, – 1992. – s. 31; Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Dizini "ENDEKS" / – Ankara: Basımevi, – 1985. – s. 532; III c. s. 413-416.

N.Merpert, V.Minorski V.Bartold, N.Piqulevskaya kimi tədqiqatçıların yazılarına görə, subərlər IV-VI əsr avar, bolqar, xəzər, savir, savromatlarla birgə əraziləri Kaspi dənizinin şimal-qərbi, Dərbənd ətrafı olmaqla göstərilən torpaqlara gəlmə tayfalardır[58]. S.Pletneva mənbələrə əsasən subərləri VI-V əsrlər hun boyları və Qafqaz əhalisi, A.Marsellin, N.Merpert, A.Krımski isə, IV əsr hun mənşəli kimi Azov gölündən şimala Qəbələ ərazisində "subar" kimi göstərmişlər[59]. Paraqraf daxilində qeyri-obyektiv elmi mövqenin nəticəsi kimi meydana çıxan bu təhriflər ciddi faktlar əsasında təkzib edilmiş, Şu və subərlərin türklər olub, hələ m.ö. V-II minilliklərdə Naxçıvan ərazisində yaşaması sübut edilmişdi[60]. Onların türk olmasını şularla bağlı 23, subərlərlə bağlı 16 oykonimin izahında ortaya çıxan m.ö. minilliklərə aid dil vahidləri də sübut edir.

**"2.10. Tal prototürkləri ilə bağlı etnooykonimlər"** paraqrafında isə Azərbaycan və Naxçıvanla bağlılığı ilk dəfə tədqiq edilən, Tal türklərindən bəhs olunur. Onların yüzlərlə ümumtürk və Naxçıvan coğrafi adlarında *Taldan*-"Tal duzu", *Talakan*-"Tal kağanı", *Talar*-"Tal əri", *Talak*-"Uca tal" kimi təkrarı adın canlı isimə, türk boyuna aidliyini sübut edir[61]. Qay Yuliy Solin də talları Kaspi dənizi sahillərində tayfa, İ.Dyakonov Təbriz ətrafında ölkə və Manna tayfası kimi Talas çayı hövzəsini, Tal torpaqlarını tutduğunu yazır. F.Bayat isə, mənbələrə istinadən onları peçeneq və Var hunları ilə birgə Talan, Tolu tayfaları kimi göstərir. Mənbələrdə Tal boyları əsl güc kimi Sır-Dərya ətrafında, *Turun Tal Kun* ifadəsi ilə m.ö. III-

---

[58] Бартольд, В.В. К вопросу о погребальных обрядах турков и монголов // Сочинения. Т. IV. – Москва: Наука, – 1966. – V, s. 357; Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. / Г.А.Гейбуллаев. – Баку: Элм, – 1991. – s. 128;

[59] Аммиан, Марцеллин. История // ВДИ. – Москва: Наука, – 1949. № 3, XXIII, – с. 236-243.

[60] Azərbaycan tarixi / – Bakı: Azərnəşr. – 1994. – s. 80-81; Cəlilov, F.A. Azərbaycan türklərinin islamaqədərki tarixi. / F.A.Cəlilov. – Bakı: Ağrıdağ, – 2014. – s.221; Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. / И.М.Дьяконов. – Москва: Наука, – 1956. – s. 141.

[61] Azərbaycan SSR-nin qısa toponimlər lüğəti / – Bakı: ASE Baş redaksiyası. – 1986, – s. 90-2; Малый атлас мира / – Москва: Картография ГУГК, – 1985. – с. 42-43, 56, 60.

II minilliklərin yazılarında qırğızlar arasında yer alır[62]. Son olaraq mənbə və B.Texov, S.Valcak, R.Tilov kimi alimlərin yazılarında isə 1920-ci islədək Naxçıvana aid olan Sürməli-Iğdir ərazisindəki Talay məzarlığının m.ö. III, Koban mədəniyyətinin m.ö. II, Urmiya türk bölgəsi Tal-Arpaçiya, Tal-Brak, Tal-Xalaf mədəniyyətlərinin isə m.ö. IV-III minilliklər Tal türklərinə aidliyini sübut edirlər[63]. Tallarla bağlı Naxçıvan ərazisində 11 məntəqə adının müqayisəli etimoloji izahı verilmişdir.

II fəslin "**2.11. Koman prototürkləri ilə bağlı etnooykonimlər**" paraqrafında Naxçıvan ərazisində m.ö. IV-III minilliklərdə kiçik dövlət və ölkələri olmuş və ilk dəfə tədqiq edilən Koman türkləri ilə bağlı 8 etnooykonim araşdırılmışdır. Q.Qeybullayev, F.Kırzıoğlu və b. onları Qıpçaq ittifaqında m.ö. XI-VIII və eramızın VIII əsrlərində sak, xəzər, peçeneqlərlə Naxçıvan, Orta Asiya, Albaniya ərazilərində yaşadığını göstərirlər[64]. Onlar M.Kalankatlı və K.Gəncəlinin yazılarında m.ö. I və eramızın VII əsrində Koman tayfa adı və şəhər kimi[65], İ.Biçurin, Q.Qrijimaylo, S.Axincanovun yazılarında isə, onlar 16 tayfa birliyində, qıpçaqların qolu kimi verilir[66]. Lakin F.Ağasıoğlu onları m.ö. II minillikdə subərlərlə Fərat çayından cənubda, "Kumani" ölkəsini Göyçə gölü ətrafında, Kumen dövlətini isə Urmiya ərazisində kas, şubarlar arasında göstərir[67].

II fəslin "**2.12. Turdi prototürkləri ilə bağlı etnooykonimlər**", "**2.13. Pal prototürkləri ilə bağlı etnooykonimlər**",

---

[62] Fuzuli, Bayat. Türk dili tarihi / Bayat Fuzuli. – Ankara: Genc, Ofset, – 2003. – s. 91; Осмонов, О.Дж. История Кыргызстана (с древнейших времен до наших дней): Учебник для вузов / О.Дж.Осмонов. – Бишкек: Раритет-Инфо, – 2008. – s. 417-418.

[63] Техов, Б.В. Центральный Кавказ в XVI-X вв. до н.э. / Б.В.Техов. – Москва: Наука, – 1977. – s. 131.

[64] Rəfiq, Özdək. Türkün qızıl kitabı I cild / Özdək Rəfiq. – Bakı: Yazıçı, – 1992. – s. 166-167.

[65] Moisey, Kalankatuklu. Alban tarixi, Mixtar Qoş Alban salnaməsi / Kalankatuklu Moisey. – Bakı: Elm, – 199., – s. 18.

[66] Ахинжанов С.М. Кыпчаки в истории средневекового Казахстана. – Алма-Ata: Наука, – 1989. – s. 285-287.

[67] Cəlilov, F.A. Azər xalqı. / F.A.Cəlilov. – Bakı: Çıraq, – 2005. – s. 45-53; Всемирная история. Т. I / – Москва: Госиздат, – 1956. – s. 515-517.

**“2.14.Tus prototürkləri ilə bağlı etnooykonimlər”, “2.15. Doray prototürkləri ilə bağlı etnooykonimlər”** adlı son 4 paraqrafında bu türklərin Naxçıvanla bağlılığı ilk dəfə tədqiq edilmiş, ərazisi və onlarla bağlı 43 etnooykonim əski lüğət və mənbələrə istinadən tədqiq edilmişdir[68].

12-ci paraqrafda turdilərlə bağlı Herodot, Strabon, Tit Livinin məlumatları və onların bir türk tayfaları olmaqla, Azərbaycan və onun bir parçası Naxçıvan ərazisi ilə bağlılığı tarixi faktlarla sübut edilmiş[69], A.Rahmeti və B.Tuxmeevin tərcümələrində bu tayfa adının təhrifi isə elmi faktlarla təkzib edilmişdir[70]. Turdilərin As türklərinin varisi olması C.Cəfərovun yazılarında da elmi faktlarla sübut edilir[71].

Fəslin 13-cü paraqrafında Pal türkləri ilk dəfə tədqiq edilir və yalnız Y.Yusifovun yazılarında türklərə bənzədilir və dissertasiyada onların qədim Azərbaycan, eləcə də Naxçıvan ərazilərində mənşəyi, ərazisi və tarixi tədqiq edilmiş, palların, Pala dilinin Doğu Anadoluda m.ö. III-II minilliklərdə olduğu, Luvi və Hett dilinin Pala dilindən yarandığı elmi faktlarla təsdiq edilmişdir. Qədim Azərbaycanın Bəsrə, Kərkük şəhərlərinə yaxın Karim şəhər ərazisindən tapılan əşyalar Pal tayfasının m.ö. IV-II minilliklərdə yaşadığını, bu əşyaların Pal ululları Paleqaur türklərinə aidliyini sübut edir[72].

14-cü paraqrafda qədim türk Tus boyları, onların dili, ərazisi və onlarla bağlı Naxçıvan ərazisindəki Tuç, Tus, Ərtus kimi oykonimlər ilk dəfə linqvistik tədqiq edilmişdir. Burada Herodotun tusları etrüsklərə aid etməsi, onların “Tirsen” adlanıb, Tirseniya adlı ölkəsi olması, Misir fironu Merneptaxe və mənbələrdə Tus adının çəkildiyi, İtaliyaya Kiçik Asiyadan gəlib, Tus varisləri olduğu

---

[68] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı. – 2013. – s. 137-151.

[69] Геродот. История. Пер. и примеч. Г.А Стратановского / Геродот – Ленинград: Наука, – 1972. – II 43, 112; IV 51.

[70] Тухмеев, Б. Вопросы поэтики «Кутадгу-билик» Юсуфа Хас Хаджиба / Б. Тухмеев. – Ташкент: Фан, – 2004. – с. 83-86.

[71] Всемирная история. Т. I / – Москва: Госиздат, – 1956. – s. 286, 411, 421.

[72] Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universiteti nəşriyyatı. – 1993. – s. 230.

göstərilir[73]. A.Nemirovski, N.Rober, V.Çudinov isə onları m.ö. I minilliyə aid edib, Kiçik Asiyadan gələn, Toskan ölkəsində yaşayan het-luvi, dravid, slavyan, Hind-Avropa, Hürri və Urartu dilli tayfalar hesab etmişlər. Bu ərazidəki m.ö. IX-VII əsr arxeoloji qrafit mədəniyyəti, Monteric və Venel yazılarını, İtaliyada oxunmayan yazıları etrüsklərə aid etmişlər[74]. Q.Nosovski, A.Fomenko və b. isə tusları Kiçik Asiyada yaşayan xalq, etrüsklərin özlərini "Tusk-sabin-rasen" adlandırmasını slavyan dilinə aid etmişlər[75]. Bütün bu versiyalara yanaşı, K.Ptolemeyin yazılarında Kür sahilində Tosaren-Tusaran əyalətinin olması göstərilir. F.Ağasıoğlunun 7 etrüsk mətninə dair fikirləri və Y.Buran, A.Çertkov, V.Modestovin əsərlərində isə etrüsk dilində türkizmlərin çoxluğu, özlərni "Tusk" adlandırması və İtaliyaya köçləri faktları onların Tus varisi olduğunu sübut edir[76]. Biz A. Alekseyin yazılarında "Etrüsk yazıları rus dilində oxunmur!" qəti fikri[77] ilə qarşılaşırıq ki, bu, tusların m.ö. III minillikdə ərazilərimizdə yaşadığını tam sübut edir.

Bu fəslin 15-ci paraqrafında ilk dəfə tədqiq edilən Doray türklərini yalnız Q.Qeybullayev antik mənbələrə istinadən "doreyti", "taurlay", "toret" kimi midiyalı hesab etmişdir. Biz "Azərbaycan tarixi" kitabında da As, Tus, Turdi, Naxər, Doray və s. prototürklərə aid heç bir məlumata rast gəlmirik[78]. B.Naydışın yazılarında doraylar Yunan tayfası kimi verilmiş, antik mənbələr isə m.ö. XVI-XIII əsrlər

---

73 Геродот. История. Пер. и примеч. Г.А Стратановского / Геродот – Ленинград: Наука, – 1972. – I, 57, 94, 166; II 63, s. 505; VI 17.

74 Немировский, А.И. Археологические музеи Тосканы // Вестник древней Истории. – Москва: Русский язык, – 1992. № 1. – с. 237- 244; Робер Ж.Н. Этруски / Ж.Н. Робер – Москва: Вече, – 2007. – s. 226-230.

75 Фоменко, А.Т. Методы статистического анализа нарративных текстов и приложения к хронологии / А.Т.Фоменко. – Москва: МГУ, – 1990. – s. 237.

76 Птолемей Клавдий. Руководство по географии. Пер. К.С. Апта и В.В.Латышева / Античная / Птолемей Клавдий. – Москва: Географиздат,- 1953. – V, 12, 9.

77 Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı. – 2013. – s. 418-425.

78 Azərbaycan tarixi. – Bakı: Azərnəşr, – 1994, – s. 77-87. Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı. – 2013. – s. 418-425; Rzayev, F.H. Qədim Şərur oykonimlərinin mənşəyi./ F.H.Rzayev. – Bakı: Nurlan, –2006. – s.7-11.

onların yunanları işğal edib, qul kimi satdığını, bu tayfaların Ön Asiya-Azərbaycan ərazilərindən Yunanstana yayıldığını yazmışlar[79]. Bu problemi araşdırann R.Şmidt, E.Meyer "dori köçü"nün yazı yox ikən baş verdiyini yazsa da onların mənşəyi və ərazisini qeyd etməmişlər[80].

Heredot, Strabon və mənbə yazıları pelasqları midiyalı "Doray" kimi kaspi, sak və pantimaflarla qonşu olduğunu, m.ö. II minillikdə onların Yunanstana yeni hücumlarını göstərir. Afina arxeoloji nümunələri isə, m.ö. II minillikdə Troyanın süqutundan sonra Doray boylarının bu ərazini işğalını, Assuriya, Misir, Axaya və s. ərazilərdə məskun olub, "teurlay" kimi gah yunan-ellin, lakedemon, gah da epidavri nəsli olduğunu göstərir[81]. Bu tarixi faktlar, dorayların Ön Asiya-Azərbaycandan Yunanıstana hücumunu, orada Doridoy əyaləti yaradıb, Kiçik Asiya tayfalarının da m.ö. II minillikdə bu yerlərə gəlib, m.ö. XIII-XII əsrlər yeni Yunan mədəniyyəti qurduğunu sübut edir[82]. Bu fəsildə turdi, doray, pal, tuslar ilə bağlı 51 etnooykonim etimoloji, linqvistik təhlil edilmiş, 15 tayfa adının adlanması, mifik inancları və s. faktlarla tam sübut edilmişdir[83].

**"Naxçıvan ərazisində m.ö. II-I minilliklərlə bağlı etnooykonimlər"** adlanan III fəsil 17 paraqraf və 11 bənddən ibarətdir. "**3. 1. Kəngər prototürkləri ilə bağlı etnooykonimlər"** adlı paraqrafda onların tədqiqatlardakı tarixi elmi yöndən təkzib edilib, m.ö. III minillikdə Naxçıvan ərazilərində olması elmi faktlarla təsdiqlənmişdir.

---

[79] Найдыш, В. Концепции современного естествознания: Учебник. – Москва: Альфа. – 2004. – s. 21-27, 46, 77.

[80] Шмидт, Р.В. Античное предание о дорийском переселении// Вестник древней истории. – Москва: Наука, – 1938. № 2, – с. 38-50.

[81] Геродот. История. Пер. и примеч. Г.А Стратановского. – Ленинград: Наука, – 1972. – I 6, 56.; Страбон. География в 17 книгах. Пер. и комментарий Г.А.Стратановского. – Москва: Наука, – 1964, – VI, I, 9.

[82] Страбон. География в 17 книгах. Пер. и комментарий Г.А.Стратановского. – Москва: Наука, – 1964. – XI, II, 10-12.

[83] Артамонов, М.И. Киммерийцы и скифы. / М.И.Артамонов. – Ленинград: Ленинградский универ ситет. – 1974. – s. 23-37, 71, 120; Vəliyev, M. Azərbaycan / V, Məmmədhəsən. – Bakı: Elm nəşriyyatı -1993. - s. 41.

R.Özdək və M.Vəliyev kınıq-kəngərləri V əsrdə peçeneqlər kimi bu əraziyə hunlar, IX əsrdə isə Amu Dərya tərəfdən ərəblərə kömək üçün gələn xələc, türkmən, moğollar içində göstərir[84]. K.Smirnov və Ə.Mirəhmədov kəngərlərin XI yüzildə, ərəblərə köməyə gəlib Qarabağ, Naxçıvan ərazilərində məskun olduğunu, T.Əhmədov da tədqiqat əsərlərinə istinadən onları türk və monqollar içində qızılbaş tayfaları kimi verir[85]. Akademik İ.Həbibbəyli isə Strabon, N.Adonosa istinadən kəngərləri m.ö. V-III əsrdə Kanqyuy adda dövlət quran, Naxçıvan ərazilərində Peçeneq qolu, uydurma Gürcüstan və Ermənistan arasında Kəngər torpağı olduğunu göstərir. O, Naxçıvanın Qarabağlar kəndi əhalisinin Kəngər qolu olduğunu yazır[86].

Şumer yazıları və paleolit dövrünə aid arxeoloji abidələr, bu ərazidə onları m.ö. III minilliyə aid edir. Tədqiqatda kəngər türkləri ilə bağlı 7 etnooykonimin etimoloji izahı verilmişdir[87].

III fəslin "**3. 2. Maq prototürkləri ilə bağlı etnooykonimlər**" paraqrafında qeyd olunur ki, qədim türk Maq tayfaları da əcnəbilər tərəfindən təhrif edilmiş, İ.Dyakonov, E.Qrantovski maqları m.ö. IX əsrdə "irandilli", Fray, Huzinq, A.Şerbak kimi alimlər isə Urmiya ətrafında türklər kimi m.ö. IX əsrə aid etmişlər [88]. Yazılarda maqlar manqu, mansu, menqi kimi tunqus, Altay, Qırğız türkləri arasında da qaldığı göstərilir[89].

Herodot maqları Midiya tayfası, Akkad çarı Naram Sinə aid (m.ö. 2290-2254) yazıda isə, "Maqan ölkəsi" ifadəsi rus siyasəti ilə Misir kimi yazılmıdır ki, m.ö. III-I minilliklər Misir elə bu adla verilir. Şumer yazılarında göstərilən "Maqan ölkəsi", "Maqilumun və

---

[84] Rəfiq, Özdək. Türkün qızıl kitabı. II cild / Özdək, Rəfiq. –Bakı: Yazıçı, –1993. – s. 1.

[85] Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / T.M.Əhmədov. – Bakı: Universiteti nəşriyyatı, –1991. – s. 158.

[86] Габибейли, И.А. Зарождение и развитие идеи азербайджанства // «Литературный Азербайджан». –Баку: Элм, –2012. № 10, – с. 32-38.

[87] Всемирная история. Т. I / – Москва: Госиздат, –1956. – с. 87, 212.

[88] Qeybullayev, Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən / Q.A.Qeybullayev. –Bakı: Azərnəşr, –1994. – s. 32-33, 111-117.

[89] Гумилев Л.Н. Древние тюрки / Л.Н.Гумилев. – Москва: Наука, –1967. – s. 34.

Meluxxin" kimi ifadələrdə Maqan-"Maqlara məxsus", Melukki-"Şanlı Mil varisi" sözləri adların Azərbaycanın Mil-Muğanına aidliyini göstərir[90]. Bu adlar Azərbaycanda "Mil-Muğan düzü", Naxçıvanın Arpaçay vadisində "Muğan" adlarında da qalır. Naxçıvan ərazisində bu tayfa adını daşıyan 17 məntəqə adlarındakı əski dil vahidləri, Maxta, Muğancıq kəndləri arxeoloji nümunələri də bu tarixi tam olaraq sübut edir.

III fəslin "**3.3. Sak prototürkləri ilə bağlı etnooykonimlər"** paraqrafında göstərilir ki, Şu türklərinin varisi olan Sak türklərinə dair sovetlər dövründə də təhrif ilə qarşılaşırıq. İ.Dyakonov, V.Struve, Q.Melikeşvili, V.Minorski, A.Xazanov kimi 40-a yaxın müəllifin yazılarında saklar m.ö. VI-V əsrlərə aid türk və "erməni" tayfası kimi göstərilmişdir. Lakin M.Seyidov, Q.Qeybullayev tarixi faktlarla onların türklər olduğunu sübut etmişlər[91]. Saklar m.ö. II minillikdə tarixdə yer almaqla, şu, kimmer, skif, sarmat və s. tayfalarla ittifaqda Skif-Sak çarlığı qurmuş, "Avesta", Bisütun yazılarında, Bibliyada "Aşkenaz", Sak Qəmər-kimmerin "oğlu" kimi verilmişdir[92]. Herodot onları Orta Asiyada "iran tayfaları", L.Levina və T.Trofimov m.ö. VII əsr Altay türkləri, E.Kuzmina isə Altay, Orta Asiya türkləri kimi vermişlər. Biz onların "Şu-Saka" dastanında şularla birgə adı keçən, Altay və Orta Asiyadan əvvəl m.ö. II minillikdə Naxçıvanda yaşayıb, m.ö. VII-V əsrlər şimala köçləri mənbə və arxeoloji faktlarla, eləcə də ərazidəki saklara aid 32 oykonimlə də sübut edilir[93].

Bu fəslin "**3.4. Zəngi prototürkləri ilə bağlı etnooykonimlər"** adlı 4-cü paraqrafında tarixi m.ö. II minilliyin sonuna aid Zəngi türklərinin Sak varisi olması sübut edən, saklarla

---

[90] Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. –Bakı: Bakı Universitet nəşriyyatı, –1993. – s. 156-172; Kramer, S.N. Tarix Şumerdən başlanır / S.N.Kramer. – Bakı: Kasımi, –2009. – s. 121.

[91] Seyidov, M.M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.M.Seyidov, – Bakı: Yazıçı, –1989. – s. 36-47; Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I / Г.А.Гейбуллаев. –Баку: Элм, –1991. – с. 82-101.

[92] Библия. Ветхий завет / –Москва: Российское Библейское Общество, –1994. –XXXVI с., 10, 3. s.19; Литвинский, Б.А. Древние кочевники «Крыши мира». / Б.А.Литвинский. –Москва: Наука, –1972. – с. 156.

[93] Геродот. История. Пер. и примеч. Г.А Стратановского / – Ленинград: Наука, – 1972. – I 153; III 93; VII 85, 96 VIII 113.

bağlı 9 etnooykonim tədqiq və təhlil edilmişdir[94]. Q.Qeybullayev, T.Əhmədov, B.Budaqv və başqalarının yazılarında Naxçıvana aid Zəngəzur, Zangıdağ və s. adlar verilsə də, onların tayfa olması, tarixi, ərazilərinə aid fikir bildirilmır. Y.Yusifov və F.Ağasıoğlu isə onların Arazdan aşağı Urmiya gölündən qərbdə "Sanqbuti" adda ölkəsi olub, assurların basqını ilə buradan köç etdiklərini qeyd edirlər[95] .

Herodot zəngilərin Dara dövrü Siciliyaya köçüb, orada Zanqley şəhəri saldığını, İ.Dyakonov m.ö. VIII əsrdə onların Urmiya ətrafında xalq olduqlarını, Urartu yazıları isə, Göyçə gölünə axan Araz çayı qolunun Zəngi adlandığını göstərir. Rus siyasəti Zəngi adını Razdan kimi versə də, çay Zəngi tayfa adındandır, bu tayfa isə m.ö. VII əsrə aid idi. Herodotda Sakariya adı Sanqri-"Zəngi əri" kimi verilir və ərazi arxeoloji nümunələri pitekantrop dövrünə aid edilir[96]. Ş.Noqimov, İ.Quldenştet və V.Voroşilovun yazılarında zəngilərin alanlarla birgə Qara dəniz ətrafı və Axın çayı vadisində yaşadıqları göstərilir, Zəngi, abxazlar isə şərqi Bolqar tayfaları kimi verilir. Zəngilərin elamlarla qonşuluğu, Dön çayı, Azov dənizi ərazilərində məskunluğu göstərilir və mənbələrdə isə Cənub Qafqazdan Kamışlara qədər ərazilərin Zəngi adlandığı, Sak tayfası olduğu yazılır[97]. K.Gəncəlinin yazılarında Zəngəzur bölgəsinin zəngilərə aidliyi, Naxçıvana aid Ərgəz, Əlincə, Zəngəzur ellərində zəngilərin yaşadığı, Zəngilanın böyük şəhər olduğu, təhriflə "Sanain" adlandığı yazılır, tarixi haqda məlumat verilmir[98]. Bu paraqrafda zəngilərlə bağlı 10 etnooykonim etimoloji izah edilmişdir.

---

[94] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, –2017. – s.180-188.

[95] Cəlilov, F.A. Azər xalqı / F.A.Cəlilov. –Bakı: Çıraq, –2005, – s. 68-69; Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. –Bakı: Bakı Universiteti nəşriyyatı, –1993. – s. 256.

[96] Геродот. История. Пер. и примеч. Г.А Стратановского/ –Ленинград: Наука, – 1972. –VI 22-24.

[97] Ногимов, Ш.Б. История Адыгейского народа / Ш.Б.Ногимов. –Москва: Москва Изд. В. Секачев, –2012. – с. 19-25.

[98] Киракос Гандзакеци. История Армении–Албании. Пер. и комментарий Л.А.Ханларяна / Гандзакеци Киракос. –Москва: Наука, –1976. – s. 27, 80, 215. 224.

Dissertasiyanın III fəslinin “**3.5. Oğuz prototürkləri ilə bağlı etnooykonimlər”**, 5-ci paraqrafında Oğuz türkləri və onlara aid adlar təhlili edilmişdir. Oğuzları “ilk tərcümə” və təhrif edən V.Bartold, F.Dits, V.Radlov, A.Şerbak və b. onları “bozok, üç ok”, “iç, dış oğuz” kimi eramızın V-XI əsrinə aid edir, sonra onları tədqiq edən E.Kemal, Ə.Ərcilasun, M.Köpürlü isə, tarixi tam göstərmirlər[99].

“Dədə Qorqud” hadisələrinin “Oğuznamədə” yer alması məlum faktdır və oğuzların əraziləri, məişəti, inancları F.Bayat, F.Şümər, S.Ağacanov, R.Özdək və b. tərəfindən VII-XI əsrə aid edilmişdir. Onlar oğuzların Sırdərya və Aral ətrafında kəngər, peçeneqlərlə vurşda məğlub olub, Balkan və Kiçik Asiyaya yayılıb, karaxani və səlcuq hakimiyyətinə qatıldığını, mənbələr isə kimmer-peçeneqlərin friq-erməniləri m.ö. VIII əsrdə balkanlardan qovub, Kiçik Asiyaya və skif-oğuz ittifaqında Azərbaycana yayıldığını göstərir[100].

Ümumilikdə Ə.Rəcəbov, F.Zeynalov, T.Hacıyev, L.Qumilyev, R.Tixonov, X.Koroğlu, M.Ergin kimi xeyli sayda müəlliflərin yazılarında oğuzlar geniş təhlil edilsə də, vahid elmi nəticə qeyd edilmir. Biz “Oğuznamə” üzərində araşdırma aparmaqla onların ərazilərimizdə m.ö. II minillikdən (1443-cü il) məskun olduğunu görürük. Dissertasiyada oğuzlarla bağlı 29 etnooykonimin semantik-struktur tipi təhlil edilmişdir[101] ki, onların bəziləri eyni adlıdır.

“**3.6. Kaspi prototürkləri ilə bağlı etnooykonimlər”** paraqrafında Naxçıvan ərazisində yaşadığı tədqiq edilməmiş Kas türklərinin varisi kaspilərin dili, tarixi, ərazisi və onlarla bağlı 5 etnooykonimin leksik mənası tədqiq edilmişdir. Yunan, aramey, Herodot, Strabon, K.Ptolemeyin yazılarına *Kaspioi* kimi düşüb, m.ö. I minillikdə “Kaspiana” ölkəsinə sahib, Xəzərdən cənubda Sak tayfası kimi məskun olan kaspilər m.ö. VI-V əsrlər Alban, Midiya, Atropatenada

---

[99] Rzayev, F.H. Naxçıvan tarixində Oğuz tayfalarının izi, onların tarixinə və “oğuz” sözünün etimologiyasına yeni baxış // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – Naxçıvan: Tusi, –2008. №3, –s. 151-159.

[100] Faruq, Sumər. Oğuzlar / Sumər Faruq. –Bakı: Yazıçı, –1992. – s. 180-183; Fuzuli, Bayat. Oğuz epik ənənəsi və “Oğuz Kağan” dastanı / Bayat Fuzuli. –Bakı: Sabah, –1993. – s. 5; Rəfiq, Özdək. Türkün qızıl kitabı. II cild / Özdək Rəfiq. – Bakı:Yazıçı, –1993. – s. 1-7.

[101] Rzayev, F.H. Qədim Şərur oykonimlərinin mənşəyi / F.H.Rzayev. – Bakı: Nurlan, –2006. – s. 126-134.

əyalətlərə sahib əsas xalq kimi göstərilir[102]. İ.Flavi, K.Taçsit, K.Gəncəli, M.Kalankatlı kimi antik müəlliflərin yazılarında onlar "Kaspi torpağı", "Kaspi əyaləti", "Kaspi" dənizi, "Kaspi qapısı" kimi adlarla skiflərlə birgə Kaspi körfəzində qeyd edilirlər[103]. İ.Əliyev, Q.Qeybullayev isə Strabon, Asoqik, M.Xorenli, F.Buzəndə istinadən onların m.ö. VI əsrdə Midiya, Atropatena, Albaniya, Mil-Muğan, Baylakan ərazilərində yaşadıqlarını göstərirlər. Burada Albaniyanın "Kaspi" ölkəsi, Kartli çarlığında Kaspi şəhərinin olduğu göstərilir, onların kasslarla birgə Hindistan, Orta Asiya, Albaniya, Kür vadisi, Xəzər və Qara dəniz ətrafında yayıldığı qeyd edilir[104].

F.Ağasıoğlu, K.Əliyev, İ.Orbeli, İ.Dyakonov və E.Hersfeldin yazılarında isə kaspilərin m.ö. III-I minilliklərdə Urmiya ətrafında, Araz və Kür çayı vadilərində kuti, subar, lulu, koman, turuk, kassilərlə birgə məskun olduqları göstərilir. Onların m.ö. II minillikdən Bütöv Azərbaycan ərazilərində yaşadığı faklarla təsdiq edilmiş[105].

III fəslin 7-ci paraqrafı "**Skif prototürkləri ilə bağlı etnooykonimlər**" adlanmaqla 3 əlavə bənddən ibarətdir və burada skif tayfalarının tarixi, əraziləri və qolları olan Yirik, Paralat, Arimaspilərə bağlı etnooykonimlərin etimoloji izahları verilir.

K.Ptolemey və "Bibliya" yazılarında Skifiya ölkəsi, çar, şəxs, coğrafi adları verilsə də, tarix və dil məsələsi izah edilməmiş, skiflərin Maqoqun varisi kimi, kimmer-sak birliyində öz sələfləri kimmer-

---

[102] Геродот. История. Пер. и примеч. Г.А Стратановского / –Ленинград: Наука, – 1972. – III 92-93; VII 67, 86; Птолемей, Клавдий. Руководство по географии. Пер. К.С. Апта и В.В.Латышева //Античная география / Клавдий Птолемей. –Москва: Географиздат, –1953. – III 5, 39; Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского / –Москва: Наука, – 1964. – XI, 4,5, 8, 8, 14, 5.

[103] Иосиф, Флавий. Иудейские древности / Пер. С греческого Г.Г. Генкеля, т. I. Флавий Иосиф. – СПб., –1900. – s. VIII, 4, 98; Корнелий, Тацит. Анналы. Книга 2 / Историки античности. Т.II / Тацит Корнелий. –Москва: Правда, – 1989. – VI, 33.

[104] Алиев, И.Г. История Мидии / И.Г.Алиев. – Баку: Элм, –1960. – s. 7-10; Всемирная история. Т. II. – Москва: Госиздат, –1956. – s. 20-21.

[105] Cəlilov, F.A. Azər xalqı / F.A.Cəlilov, – Bakı: Çıraq, – 2005. – s. 143-145; Алиев, К. Г. Античная Кавказская Албания / К.Г.Алиев. – Баку: Азернешр, – 1992. – s. 58-59.

ləri özlərinə tabe etdiyi göstərilmişdir[106]. Bu problemlə bağlı B.Qrakov, K.Smirnov, A.Simonenko, A.Dovatur, A.Kallistov, E.Qrantovski, İ.Şişova, F.Rəşidəddin kimi müəlliflərin əsərlərində isə, skiflərin m.ö. VIII-IV əsrlərdə tarix səhnəsində yer aldıqları qeyd edilmiş, tərcümədə siyasi məqsədlə onlar "Herodota" istinadən "irandilli", monqollardan gəlmə tayfa kimi göstərilmişdir[107]. Lakin P.Şafarik öz tədqiqatlarında elmi faktlara əsaslanaraq skiflərin "türk xalqı" olduğunu, onların "İskutay", "İşquzay" adları ilə m.ö. VII əsrdə Tunadan çıxıb Qafqaz və Orta Asiya arası imperatorluq qurduqlarını yazmışdır[108]. "Azərbaycan tarixi" kitabında, Q.Qeybullayev, Z.Həsənov, B.Tuncay, K.Kolobovanın əsərlərində skiflərin Azərbaycanda m.ö. II minilliyin sonu və VIII əsrdə aqafirs, paralat, irik, alanlarla birgə yaşadıqları, ilk yurdlarının Şimali Qafqaz olduğu, Kür-Araz arasında məskunlaşdıqları və Assuriyaya hücumları göstərilmişdir[109].

Herodot skiflərin Lipoksay nəslinin-"Axvat" adlandığını, ortancıl qardaşın nəslindən "Katiar" və "Traspi", kiçik qardaşı - çar nəslindən "Paralat" boyunun davamını göstərir. O, Lipoksayın Tarqitayın oğlu olub, onun dövründən Daranın onlara hücumuna qədər 1000 il keçdiyini yazır. Bu isə m.ö. 1522 ilə aiddir. K.Tatsit isə "Annalı" bölümündə Misir çarı Ramsesin m.ö. XV əsrdə Skifiyanı işğal etdiyini göstərir ki, o dövr farslar yox ikən, onlar "irandilli" ola bilməzdi[110]. Paraqrafda skiflər və onun *Paralat, Arimaspi, Yirik* qolları ilə bağlı Naxçıvan ərazilərində 22 etnooykonim tədqiq edilmişdir [111].

---

[106] Клавдий, Птолемей. Географическое руководство. См. Латышев В. В. Известия // Вестник древней истории / Птолемей Клавдий. – Москва: Наука, –1948. - XXIV, №2 – с. 252, 254.

[107] Граков, Б.Н. Скифы / Б.Н.Граков. – Москва: Изд-во МГУ, –1971. – 202 с., 43-45; Доватур, А.М. Народы нашей страны в "Истории" Геродота / А.М.Доватур, Д.П.Каллистов, И.А.Шишова, - Москва: Наука, – 1982. – 455 с., s. 209.

[108] Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən / Q.A.Qeybullayev, – Bakı: Azərnəşr, – 1994. – s. 136, 140-145.

[109] Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, –2017. – s. 238-267.

[110] Геродот. История. Пер. и примеч. Г.А Стратановского / – Ленинград: Наука, – 1972. - 599 с. I 105; IV, 1, 17, 123-125; V 24; VII 10.

[111] Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı., –2017. –s. 238-267.

Dissertasiyanın III fəslinin "**Kimmer prototürkləri ilə bağlı etnooykonimlər" adlı səkkizinci** paraqrafında Kimmer türkləri ilə bağlı oykonimlərin etimologiyasına dair geniş təhlillərə yer verilmişdir. Herodotun əsəri və dünya tarixinə dair yazılarda bu tayfaların m.ö. VI əsrdə ərazilərimizə və Kiçik Asiyaya gəlişi göstərilib, onlar skiflərlə ittifaqda m.ö. VIII əsrə aid "irandilli" tayfalar kimi verilib. Q.Melikişvili, R.Fray, İ.Dyakonov kimilərin yazılarında onların Mannada yerli "qamir" əhalisi olduğu, iran və frakiyalılarla qohumlluğu qeyd edilir[112]. Lakin Q.Qeybullayevin tədqiqatları, Assur, Hett, Axxiyava yazıları, salnamə və digər mənbələrdəki tarixi faktlar bu fikirləri tam təkzib edir. Biz, Herodot, Strabon, Klavdiy Ptolomey və s. mənbələrə istinadən bu siyasi təhrifləri elmi faktlarla təkzib edib, kimmerlərin "türk, monqol", əsasən isə "Qafqazlı" olduqlarını göstərmişik.[113]

Salnamə yazıları və tarixi faktlar da skif-sak-kimmer-sarmatları eyni ittifaqda sarmat və massagetlər kimi göstərir. Paraqrafda Qara dənizin şimalından Bəsrə körfəzinə qədər prototürklərin kimmerlərlə birgə Urartunu çökdürüb, m.ö. II minillidə böyük imperatorluq qurduğu faktlarla sübut edilir. Naxçıvan ərazisində kimmerlərlə bağlı 8 məntəqə adında əski ürk dil elementləri onların türk olduğunu tam olaraq təsdiq edir[114].

Dissertasiyanın III fəslinin "**Midiya prototürkləri ilə bağlı etnooykonimlər"** adlı 9-cu paraqrafı 4 əlavə bənddən ibarət olmaqla, Midiya tayfaları bus, partagen, arizant, budilərin dili, ərazisi və onların adlari ilə bağlı etnooykonimlərin struktur-semaantik izahlarını əhatə edir. Herodot Midiya ərazisini Mesopotamiya və Xəzər dənizi arasında göstərsə də, rus siyasətini həyata keçirənlər onu "Kürdüstan", əhalisini isə fars kimi qeyd

---

112 Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. / И.М.Дьяконов. –Москва: Наука, –1956. – с. 34-35; Алиев, И.Г История. Мидии / И.Г.Алиев. – Баку: Элм, –1960, – s. 7-10.

113 Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. / Гейбуллаев Г.А. – Баку: Элм, – 1991. – s. 317-319.

114 Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, – 2017. – s. 271-275; Всемирная история. Т. I. / – Москва: Госиздат, –1956. – s. 516, 528-533.

edirlər. E.Hersfeld, Q.Hüzinq, İ.Dyakonov, Q.Melikişvili və b. onları gəlmə, "irandilli" farslar kimi göstərmişlər. Mənbələr isə Midiya tayfaları olan bus, maq, struxat, partagen, arizant, budilərin Parsuanı özlərinə tabe etdiyini yazır ki, bu dövr fars etnik qrup idi. Assur, Elam yazılarında Midiya dövləti m.ö. IX əsrdə Maday, Matape kimi göstərilməklə, onlar m.ö. VII əsrdə Assur və Urartuları işğal edib, Midiya imperiyasını qururlar[115]. Skif, kimmerlər isə Assur yazıları və mənbələrdə "Matay", "midiyalı" adı ilə türk arealında Matay, Mete, Maday, Madı kimi şəxs, coğrafi və tayfa adlarında öz izlərini qoymuşlar[116]. Bu tayfalarla bağlı Naxçıvan ərazisində 34 məntəqə adının etimoloji izahları verilmişdir.

"**3.10. Şirak prototürkləri ilə bağlı etnooykonimlər"** adlı paraqrafında Şirak prototürklərinin tarixi, dili, ərazisi və onlarla bağlı etnooykonimlər tədqiq edilmişdir.

Eramızın II əsrinə aid "Hərbi hiylə" əsərində Polien mehtər Siraqın Saq/Sak tayfası içərisində yaşayıb, Dara ordusunu səhrada məhv etdiyi yazılır. Digər bir türkoloq Sergey Klyaştornı isə onlardan "kıpçaq" kimi söz açır, Göytürk dövlətçiliyində yerləri olduğunu bildirir. Q.Qeybullayev bu türklərin ərazisini, M.Seyidov isə m.ö. II minillikdə onların türklərlə ittifaqını və sözün mənasını geniş təhlil etmişlər. Mənbələrdə Sak və Şirak boyları eyni mənşə və tarixə aid türklər kimi göstərilir[117]. V.Vinoqradov, M.Artamanov, B.Lunun, N.Veselevsk isə Önkuban kurqan abidələri mədəniyyətini m.ö. III əsr türk tayfası şiraklara aid edib, sarmatlarla birgə onların

---

[115] Геродот. История. Пер. и примеч. Г.А.Стратановского / – Ленинград: Наука, – 1972. – s. 100-102, 107, s. 577; Алиев, И.Г. История Мидии / И.Г. Алиев. – Баку: Элм, –1960. – с. 130; Дьяконов, И.М. История Мидии от древнейших времен до конца IV в. До н.э. / И.М.Дьяконов. – Москва: Наука, – 1956. – с. 34-35.

[116] Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. / Г.А.Гейбуллаев. Баку: Элм, –1991. – с. 252; Rzayev, F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c./ F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı. – 2017. – s. 308-352.

[117] Древние авторы о Средней Азии (VI в. до н.э., III в. нашей эры / –Ташкнт: СОЦЭК, –1940. – s. 34-35; Qeybullayev, Q.A. Qədim türklər və Ermənistan / Q.A.Qeybullayev. –Bakı: Azərnəşr, –1992. – s.104-108

ilk yurdlarını Qagqazda göstərirlər[118]. Onların türk, sak varisi olduqları ərazidəki 17 məntəqə adının təhliliylə də sübut edilir.

Dissertasiyanın **“3.12. Gel türkləri ilə bağlı etnooykonimlər”** paraqrafında Gel tüklərinin dili, tarixi və ərazisi tədqiq edilib, 11 oykonimin izahı verilir. Gellər mənbələrdə “Gel”, “Gilak”, “Kadus” kimi “gəlmə”, “irandilli”, “mənşəyi qaranlıq” tayfalar kimi göstərilir, Strabonda Atropatena əhalisi kimi kadus, amard, tapirlərlə birgə verilirlər. K.Ptolemey isə “galuş”-kadusları gellərlə bir köklü, Xəzərin cənub-qərbində yaşayan, Gelde şəhəri olan xalq kimi göstərir[119].

Herodot, Q.Qeybullayev, V.Minorski, A.Sumbatzadə, K.Əliyevin yazılarında onların kadus varisi kimi, uti, gel, maq, budi tayfalarıyla bir ittifaqda, udin, massaget, amazonlar arasında yaşadığı göstərilir. Bu yazılarda alban, amazon, gellər skif tayfalarıdır, onlar Gilanın dağlıq hissəsi Deylamdan çıxıb, İranın mərkəz və cənubunu, Mesopotamiyanın bir hissəsini işğal edirlər. Onlar rus siyasəti ilə talış kimi göstərilib, m.ö. IV-I əsrə aid edilirlər. Lakin Naxçıvan ərazisində m.ö. III minillikdə Gilan şəhər mədəniyyətini yaradan, Mesopotamiyanı işğal edənlər, talışlar deyil, Gel-Skif türkləri olmuşdur[120].

**“3. 12. Çul türkləri ilə bağlı etnooykonimlər”** paraqrafında Naxçıvan ərazisində yaşamış qədim Çul türkləri və onlarla bağlı oykonimlər tədqiq edilmişdir. V.Bartold çulları eramızın IV-VII əsrlərinə aid türk, F.Bayat peçeneq, A.Bakıxanov oğuz, R.Özdək *hun*, M.Vəliyev isə *lək* kmi göstərsələr də, onların ərazisi və sözün izahını verməmişlər. V.Kotoviç isə sözü “irandilli” onomastik vahid

---

[118] Seyidov, M.M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.M.Seyidov. – Bakı: Yazıçı, –1989. – s. 47-54; Виноградов, В.Б. «Сиракский союз племен на Северном Кавказе // Советская археология / В.Б.Виноградов. – Москва: Наука, –1965. №1, – с. 108.

[119] Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского / – Москва: Наука, –1964. –XI, 6, I: XI, 8, 4; Azərbaycan tarixi üzrə qaynaqlar / – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, –1989. – s. 23.

[120] Минорски, В.Ф. История Ширвана и Дербента / В.Ф.Минорски. –Москва: Наука, –1963. – с. 30-33; Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. / Г.А.Гейбуллаев. – Баку: Элм, –1991. – с. 159-166, 361-362.

kimi izah etmişdir[121].

Q.Qeybullayev K.Ptolomey, M.F.Minorski, İ.Markvart və V.Kotoviçin "irandilli" fikrlərini elmi faktlarla təkzib edib, Çol, Çor, Sul şəhər adlarının Çul türk tayfa adı ilə bağlılığını yazır, T.Əhmədov isə, Kaspi ətrafındakı Coqa vilayət adını "atlı-hun" kimi izah edir[122].

Bəzi mənbələr m.ö. III əsrdə Yaxın Şərqdə *Keral* və *Çol* tayfalarının məskunlaşmasından xəbər verir, m.ö. II əsrdə Tamil boylarının Çol ərazisindən Anuradxapuru işğal etdiyini göstərir. Herodot isə Kiçik Asiya-Türkiyə ərazisində Solı şəhəri və Sol-Çol tayfalarının olduğunu göstərib, onların m.ö. V əsrdə fars çarı Artibayla döyüşünü yazır. Qennadiy Potopovun yazılarında isə m.ö. 737-ci ildə assurların Midiyaya hücumunda Sol düzündən bəhs edir ki [123], bu, çolları m.ö. VIII əsrə aid edir. Naxçıvan ərazisində çullarla bağlı 13 oykonimin izahındakı dil və tarixi faktlar da onların türk olduğunu təsdiqləyir.

Dissertasiyanın III fəslinin **"Yaycı-Yuci türkləri ilə bağlı etnooykonimlər"** adlı III paraqrafında Yuci-Yaycı və Kol türklərinin ərazisi, dili, onlarla bağlı 10 oykonim bəzi adlar eynilə təkrarlanmaqla mənbələrə əsasən tədqiq edilmişdir. N.Piqulevskaya, N.Lsenko və başqaları Yaycı türklərinin vaxtı ilə Türküstan, Ural ətrafında skif, kuşan, usunların əcdadları olaraq yaşadıqlarını göstərir, bu məlumat II cild "Azərbaycan tarixində" də təkrarlanır. Roma mənbələrində isə "Serica" ölkəsi xalqı yüçilər olaraq m.ö. II

---

121 Бартольд, В.В. Сочинение. Т. I, II ч./ В.В.Бартольд, – Москва: Восточняя Литература, –1963. – с. 575-580; Rəfiq, Özdək. Türkün qızıl kitabı I c. / Özdək Rəfiq. – Bakı: Yazıçı, – 1992. – s. 60; Fuzuli, Bayat. Türk dili tarihi / Bayat Fuzuli. – Ankara: Genc,Ofset, – 2003. – s. 91; Аббас-Кули-Ага, Бакиханов. Гюлистан- и Ирам / Бакиханов Аббас-Кули- Ага. – Баку: Элм, – 1991, – 304 с., с. 33, 45, 66.

122 Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I, / Г.А.Гейбуллаев, – Баку: Элм, – 1991. – с.110-114; Əhmədov, T.M. Azərbaycan toponimikasının əsasları / T.M. Əhmədov, – Bakı: Bakı Universiteti nəşriyyatı, – 1991. – s. 36.

123 Геродот. История. Пер. и примеч. Г.А Стратановского. – Ленинград: Наука, – 1972. – 599 с., I 173; V 110, 113; Всемирная история. Т. II, – Москва: Госиз- дат, – 1956. – с. 558-592.

əsrə aid edilir[124]. Strabon, Q.Qeybullayev, B.Ögəl, B.Budaqov və digər mənbə yazılarında isə, yucilərin m.ö. III əsrdə Türküstanda "Şace" adlı hökmdarlıq və paytaxt şəhəri, kuşan, uşunlarla birgə m.ö. I yüzillikdə Kuşan çarlığı qurduğu qeyd olunur. Bu yazılarada onların oğuz elində ayrıca yeri olduğu, m.ö. IV əsrdə İsgəndərə qarşı vuruşduğu, parfiyaya hücumları, skif, toxar, assian və sakarlarla birgə Yunan-Baktriya çarlığını yıxaraq, ərazilərimizdə məskunlaşdıqları göstərilir[125] ki, bu m.ö. IV yüzilliyə aiddir.

**"3. 14. Kol türkləri ilə bağlı etnooykonimlər"** adlı bu paraqrafda Kol türkləri və onlarla bağlı adlar geniş izah edilir. Herodot, K.Ptolomey, M.Xorenlinin yazılarında onların qıpçaq, bolqar, kəngər türkləri arasında olub, Kolxi tayfa, əyalət və çarlıq adının m.ö. VIII əsrdə olması, ərazinin Azərbaycana məxsusluğu tam təsdiq edilir. Bu yazılarda kolların peçeneq, skif, qıpçaqlarla birgə türk olduğu, Ordubad ərazsinin "Kolton", "Qoxtan" adlandığı, bolqarların m.ö. II əsrdə gəlib bu ərazilərdə məskunluğu tarixi faktlarla sübut edilir[126]. Bununla yanaşı, yuci və kollarla bağlı Naxçıvan ərazisində 18 etnooykonimin semantik-struktur quruluşu da izah edilmişdir.

**"3. 15. Bolqar türkləri və onların qolları ilə bağlı etnooykonimlər"** paraqrafının 4 əlavə bəndi Bolqar türk qollarının dili, tarixi, ərazisi, onlarla bağlı oykonimlərin tədqiqini əhatə edir. Naxçıvan ərazilərində yaşamış bolqarlar skif, utuqurlar kimi bir çox yazılarda türk və "irandilli" tayfalar sayılmış, onlarla bağlı oykonimlər sistemli tədqiq edilməmiş, Feofilakt Simokatta

---

[124] Лысенко, Н.Н. Этногенез и военная история иранских кочевников Евразии и период II в. до н. э.-II в. н. э. / Н.Н.Лысенко. – Владикавказ: Сев.-Осет., – 2007. – с. 20-21.

[125] Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского / –Москва: Наука, –1964. – s. 1, 8, 11; Всемирная история. Т. II. – Москва: Госиздат, –1956. – с. 669-670; Боровкова, Л.А. Кушанское царство (по древним китайским источникам) / Л.А.Боровкова. – Москва: ИВ РАН, – 2005. – s. 34-36.

[126] Геродот. История. Пер. и примеч. Г.А Стратановского / – Ленинград: Наука, –1972. – I 2, 104; IV 37-38, 86; VII 197; Хоренский, Моисей. История Армения. Пер. Н.Эмина / Моисей Хоренский. – Москва: Яуза, СПб., – 1893. II, 56; III. 44

bolqarların ana yurdunu Soqdianada göstərib, onun zəlzələdən dağıldığını yazır[127]. M.Artamanov isə onları eramızın IV-X əsrlərinə aid edib, Volqa, Dunay çayları boyu bolqarların türkdilli oqur qolu kimi, Kiçik Asiya, balkanlarda ostiaqlara qarşı vuruşduğunu qeyd edirlər[128].

R.Kuziyevin yazılarında onlar sak və massaget türkləriylə birgə göstərilmiş, U.Batırov və A.Sabyanin isə əski bolqar salnaməsi "Caqfar tarixi"nə istinadən m.ö. VIII əsrdə skif tayfaları akasirlərin, bolqar və rusların Volqa-Ural nəslindən gəlib, bolqarların bunu "saklan" adlandırdığını, saklanların 15 min il öncə Asiyadan gəlib finuqorlara qarışdığını, türk uqor dilini götürüb "Bulqar" adlandıqlarını yazırlar. Onlar sonra Böyük Bolqariyanın yaranmasını, bura yirik, as, bolqar, eskil, barsil, hun, türk, qıpçaq, sarmat, xəzər, kazan boylarının qatıldığını da qeyd edirlər[129]. Q.Qeybullayev N.Merpertə istinadən onların türk olduğunu, Şimal Qafqaz, İrəvan, Cənubi Azərbaycan torpaqlarında yaşadıqlarını, Bulqar dağı, Bulqarçay adlarını eskil, kazan boyları ilə bağlı tayfa adlar kimi sübut olaraq göstərir[130]. Xeyli yazılarda bolqarların m.ö. II minillikdə İdel dövləti qurub, m.ö. VII əsrdə Şimal Çindən Kiçik Asiyayadək yayılıb, Xəzər ətrafının onların Ana yurdu olduğu, dövlətçiliklərinin m.ö. IV-II minilliklərə aidliyi və Zərdüştlük inancında olması sübut edilir[131]. Naxçıvan ərazisində bolqarların barsil, çakar, kuruqur, qazan qolları ilə bağlı 18 oykonimin etimoloji izahı verilmişdir.

**"3.16. Qıpçaq türkləri və onların qolları ilə bağlı**

---

[127] Феофилакт, Симокатта. История / (Пер. с греч. проф. С.И. Кондратьева) / Симокатта Феофилакт. – Москва: Изд. АН СССР, –1957. – с. 7, 23, 115.

[128] Артаманов, М.И. Истории Хазар / М.И.Артаманов. –Ленинград: Изд. Гос. Эрмитажа. –1962. – с. 180-182.

[129] Батыров, У.Ф., Собянин, А.Д. Булгары: неизвестная история очень известного народа // "Профи" / У.Ф.Батыров, А.Д.Собянин. – Москва: Наука, – 1999. № 6-7, – с. 61-68.

[130] Гейбуллаев, Г.А. К этногенезе азербайджанцев. Т. I. / Г.А.Гейбуллаев. – Баку: Элм, –1991. – с. 133-135, 355-356.

[131] Сокровища булгарского народа / Выпуск 1. Этногенез. История. Культура. Под ред. акад. Ю.К. Бегунова / – Санкт-Петербург: Санкт-Петербург, – 2007. – с. 23-36, 121-127, 142-144, 205.

**etnooykonimlər”** paraqrafında Qıpçaq türklərinin Qaraçuq, Qarabulak, Çala-Berd, Sığalı, Çala, Çarık, Çankı qolları geniş tədqiq edilməklə, onlarla bağlı 29 oykonimin etimooji izahı verilmişdir.

Tədqiqatlarda qıpçaqlar m.ö. VIII, eramızın XIX əsrlərinə aid edilsə də, onların Naxçıvan ərazilərində məskunlaşması, onlarla bağlı oykonimlər sistemli tədqiq edilməmiş, Y.Yusifov, İ.Əliyev, Q.Qeybullayevin yazılarında Koman-Qıpçaq birliyinin türk ittifaqında yeri və qolları göstərilsə də, tarixləri son dövrlərə aid edilmişdir[132]. Ə.Quliyev onları Şir Qıpçaq kimi eramızın VI-VII əsrlərinə, R.Özdək Kuman-Qıpçaq, Xəzər-Qıpçaq-Uz ittifaqını XI əsrə, Q.Qeybullayev isə, V-VII əsrlərə aid edir. Bu yazılarda kuman, kolmat, kol, kullar Qıpçaq varisləri kimi verilir, F.Kırzıoğlu onların m.ö. VIII əsrə aid edib, sak, kuman, xəzər, beçeneq, barsil türk ittifaqında Naxçıvanın Gümrü bölgəsində yaşadığını göstərir[133]. N.Baskakov N.Aristova və mənbələrə əsasən bu tayfa qollarının Naxçıvan ərazisində m.ö. II minillikdən məskunluğunu, m.ö. VIII əsrdə Dərbənd qalasını tikib Ağrı ətrafına yayımını yazır[134]. Dissertasiyada onların Şir, Sak, Bulqar, Xəzər, Kuman, Barsil ittifaqında m.ö. XIV-XIII əsrlər Naxçıvan ərazilərində məskunluğu, m.ö. II-I minilliklərdə Kür, Araz boyundan şimala yayımı və komanların varisləri olması xeyli tarixi faktlarla sübut edilmişdir[135].

III fəslin **“3.17. Xaçmatak türkləri ilə bağli etnooykonimlər”** paraqrafı Xaçmataq türklərinin ərazisi, dili, tarixi, bu tayfalarla bağlı inanc və etnooykonimlərin tədqiqini əhatə edir. Azərbaycan ərazilərində Xaçmaz, Qaraxaç, Karaxaçlı, Xaçaparaq, Ağxaç kimi xeyli adlara rast gəlirik və bu ərazi əhalisi Reyhanlı,

---

132 Yusifov, Y.B. Qədim şərq tarixi / Y.B.Yusifov. – Bakı: Bakı Universitet nəriyyatı, – 1993. -s. 91-95; Алиев, И.Г. История Мидии./ И.Г.Алиев. -Баку: Элм, –1960. – с. 121, 134-136.

133 Qeybullayev, Q.A. Qədim türklər və Ermənistan / Q.A.Qeybullayev. – Bakı: Azərnəşr, –1992. – s.126; Rəfiq, Özdək. Türkün qızıl kitabı, I cild / Özdək Rəfiq. – Bakı: Yazıçı, –1992. – s. 166-167.

134 Баскаков, А.Н. Ногайский язык и его диалекты / А.Н.Баскаков. – Москва-Ленинград: Наука, –1940. – с. 138; Kırzıoğlu, M.F. Kars tarihi I c. / M.F.Kırzıoğlu. –İstanbul: Işıl Matbaası, – 1953. – s.17, 35-50.

135 Всемирная история. Т. I. / – Москва: Госиздат, –1956. – с. 315, 318, 515.

Şeyikli, Qəmərli, bayatları[136] adlandırılmaqla, Azərbaycan türkləri kimi verilir [137]. Diqqət etsək, “xaç” sözlü adlar *ağ, ər, kara, böri-qurd* qədim türk isim və sifətləri ilə Azərbaycan dilində formalaşıb. Mənbə yazılarında m.ö. IV əsrə aid Azərbaycan dövləti “Alban Xaçın knyazlığı” adlanmış, V əsrdə burada quqar, masqud, hunlarla bərabər xaçmatakların da adı çəkilir.

Xaçmatakların adı “Hüdud-əl-Ələm” əsərində buntürk, bulqar, qıpçaq, hun, oğuzlarla yanaşı türk tayfası kimi verilir. Addakı *tak/tağ/dağ* leksik vahidi tədqiqatlarda “dağ” sözü kimi verilsə də, qədim türklərdə *tak*-“möcüzəli”, *mat/bat*-“yer”, “ölkə”, *ak/ağ*-“uca” sözləri tayfa adını türk dilində “Uca xaç eli” kimi izah edir[138]. “Xaç” sözü *xaç/kaç* yazılışında “aləm”, Skif-sarmat türklərində isə xaç yuxarı istiqamətdə səma, günəş, aşağı istiqamətdə torpaq, su, yan istiqamətlərdə ətraf aləmlə vəhdət kimi işlənmişdir. M.ö. III-II minilliklərə aid Nüvədi, Gəmiqaya, Qobustan rəsmlərindəki bu işarə dünyanın 4 cəhətinə aid svastik işarə idi ki, bu xristianliğın deyil, 5 min il öncəki türklərin Tanrı mifoloji inancı ilə bağlı işarə idi[139].

S.Nikonenko eramızın V əsrində Roma, yunan, Rusiya xristianlarının İisusun təsvirini necə vermək və xaçla bağlı qızğın mübahisələr apardığını, İ.Neyxardt “Yeni çağırış“-Apokalipsisdə xaçı xristianların “vəhşilik“ rəmzi saydığını yazır. III əsr xristian müəllifi Felikis Minusiy xaça nifrət bəslədiklərini, xaçın xristianlara aid olmadığını, taxta xaçı Tanrı inancı-bütpərəstliklə bağlayıb, ona sahib hun, qıpçaqları “bütpərəst”, “xristian kimi” lənətləyir. İlk xristian duası isə 312-ci ildə “Xuday adında bütün adəm açıq bulsun” şəklində türk dilində oxunmuşdur[140]. Bu faktlar m.ö. III-I

---

[136] Фавстос, Бузанд. История Армении. Перевод и комментарии М.А. Геворгяна / Бузанд Фавстос. – Ереван: АН Армянской ССР. –1953. – с.. 211, 268; Əliyev İ.H. Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr / İ.H.Əliyev. – Bakı: Elm, – 1989. – 30-31.

[137] İrəvan əyalətinin icmal dəftəri / – Bakı: Elm, –1996. – s. 159-182; Naxçıvan sancağının müfəssəl dəftəri / – Bakı: Sabah, –1997. – s. 27-35, 42-74.

[138] Kitabi-Dədə Qorqud / – Bakı: Yazıçı, – 1988. – s. 42-52, 380-386.

[139] Baxşəliyev, V.B. Gəmiqaya təsvirlərinin poetikası / V.B.Baxşəliyev. – Bakı: Elm, –2002, – s. 16.

[140] Мурад, Аджи. Европа. Тюрки. Великая Степь / Аджи Мурад. –Москва: Мысль, –1998. – s. 271-290; Никоненко, С.С. Легенда об Иисусе Христе / С.С.Никоненко, – Москва: Советская Россия, –1964. – s. 71.

minilliklərdə xaç işarəsini türklərə aidliyini, xaçın Tanrı dinidən gəldiyini sübut edir. Dissertasiyada Naxçıvan ərazisində xaçmataqlarla bağlı 18 oykonimin linqvistik izahı verilmişdir.

**"Naxçıvan paleoetnooykonimlərinin strukturu"** adlı IV fəsil, özündə 5 paraqrafı birləşdirir. **"4.1. Paleoetnooykonimlərin struktur formaları"** adlı 1-ci paraqrafda kas, şu, tus, tal və s. tayfa adlarından yaranan, 40-a qədər birhecalı Hor, Koş, Sus, Tal kimi sadə etnooykonimlər tədqiq edilmişdir[141]. Asti, Bornax, Türküt kimi 280-dən artıq ikihecalı etnooykonimdə tayfa adları leksik vaihidlərlə yanaşı *at/t*-cəmlik, "yer, məkan", *-an-"*mənsubluq" kimi əski türk şəkilçiləri As+ti-"As tikən", Tal+at-"Tallar", Bor+nax-"Qurd Nax" kimi adları düzəltmə və mürəkkəb kimi göstərir. Burada dilin nominativ funksiyası tam ortaya çıxır, qrammatik məna onun ekspresivlik ifadə üslubunu göstərir. Adlarda "yurd", "el" kimi coğrafi ad olmadığından, dissertasiyada adlar "Uca As eli", "talın yurdu" kimi coğrafi adlarla verilir. Adlarınn bu cür adlanmasını S.Mollazadə qaranlıq hesab edir[142].

Eyni qrammatik və semantik quruluş 240-dan artıq üç, 52 dörd və 8 beşhecalı etnooykonimlərdə də təkrarlanır. Onları formalaşması əski şəkilçi və söz kökləri, heca tipində görünür. Bu paraqrafda adların etimoloji mənaları qədim sözlüklərə istinadən izah olunmuşdur[143].

**"4.2. Paleoetnooykonimlərin yaranmasında mifologiya"** paraqrafında, qədim türk tayfa adlarının yaranmasında türk mifi tədqiq edilmiş, Naxçıvan etnooykonimlərində 76 tayfa adının *Asallaxu, Əras* tanrı adı-As ər tayfası, *Tork* tanrı adı -Türkkü tayfası, *Kaş* tanrı adı -Kas tayfası, *Şum* tanrı adı-Şu tayfası, *Şar* tanrı adı

---

[141] Budaqov, B.Ə. Ermənistanda Azərbaycan mənşəli toponim-lərin izahlı lüğəti / B.Ə.Budaqov, Q.Ə.Qeybullayv. – Bakı: Oğuz eli, –1998. – s. 48-54; Bağırov, A.N. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri / A.N.Bağırov. – Bakı: Elm, –2002. – s. 28-31.

[142] Rzayev, F.H. Qədim Şərur oykonimlərinin mənşəyi / F.H.Rzayev. – Bakı: Nurlan, – 2006, – s. 42, 221.

[143] Севортян, Э.В. Этимологический словарь тюркских языков.Т. I. / Э.В. Севортян. – Москва: Наука, –1974. – с. 284.

Şirak tayfası kimi türk mifi ilə yarandığı sübut edilmişdir[144]. Bu cür adlar əski miflə bağlı "maq", "qam", "böri-qurd", sonralar İslam dini ilə bağlı "Allah", "hacı" kimi sözlərlə də etnooykonimə çevrilmişdir. Buna Çematiyan (qam), Muğanlı (muğ), Berdik (böri-qurd) kimi xeyli ad misal ola bilər. Bu adlar günümüzdə Hacıalı, Allahqulu və s. ad quruluşunda da təkrarlanmaqla, iki nəsildən sonra "Hacıalı tayfası", "Allahqulu tayfası" kimi adlanmaqla tayfa statusunu alırlar.

**"4.3. Paleoetnooykonimlərdə amorf-kök dilləri əlamətləri"** və **"4.4. Paleoetnooykonimlərdə flektivlik əlamətləri"** adlı paraqraflarında A.Şlegel və B.Çobanzadənin dil qruplarına dair fikirləri, flektiv dillərdə sözün ön, orta və sondan dəyişməsi, amorf dillərin təkhecalı kök sözlülüyü, aqqlütinativ-iltisaqi dillərdən fərqi, Azərbaycan dilinin kök şəkilçilərlə tam fikir ifadəsi və sabitliyi faktlarla sübut edilir[145].

Q.Melnikov iltisaqi, flektiv, amorf dillərə linqvistik yöndən yanaşmış, A.Şleyxer, X.Şteyntal kimilər öz yazılarında B.Humboldat nəzəriyyəsini, linqvistikanın dili tam izah etdiyni təkrarlamış, S.Klyaştornı isə türk runi yazıların türk morfoloji quruluşu üçün əsl mənbə olduğunu yazmışlar[146].

Fikrimizcə, səslər tək hərflərlə e-ev, i-"iç", t-"tikmək", o-"bina", kimi söz ifadə etmiş, iki hərf birləşməsi sözə çevrilib sabit mənada kök dilləri *il*-"yurd", *uk*-oğul, varis", *ak*-"uca", *as*-"zəka, ağıl", *bi*-"bəy" kimi meydana gətirmiş, digər bir və ikihecalı sözlə As+ak, Sub+bi, Kas+il+ək və s. kimi "As uca", "Sub bəy", "Kas yurd uca"

---

144 Naxçıvan tarixi I c. / – Naxçıvan: Əcəmi, –2013. –s. 104-132; Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c. (m.ö.VI-III minilliklər) / F.H.Rzayev. – Bakı: ADPU nəşriyyatı, –2013. – s. 18-19; Мифы народов мира. Энциклопедия. Т. I. / – Москва: Советская энциклопедия, –1987. – с. 112; Мифы народов мира. Энциклопедия. Т. II /– Москва: Советская энциклопедия, –1988. – с. 401-457.

145 Məmmədov, N.N. Dilçiliyə giriş / N.N.Məmmədov, A.A.Axundov. – Bakı: Maarif, –1980. – s. 311-315; Babayev A.M. Dilçiliy giriş / A.M.Babayev. – Bakı: Maarif, –1992. – s. 445, 471.

146 Кляшторный, С.Г. Памятники древнетюркской письменности и Этнокультурная история Центральной Азии / С.Г.Кляшторный. – Москва: Наука, – 2006. – с. 35-38.

şəklində formalaşmışlar[147] . Burada amorf dillərdəki söz sırası məna olmadan tam təkrarlanır. Müasir dilimizdə isə, adlar "uca As", "Sub bəyi", "Uca Kas yurdu" mənalarında ifadə olunur. Amorf və flektiv dillərlə müqayisədə "dostumsan" türk sözünün tərcümədə "ты мой друг", "du bist mein freund" kimi sözlərlə ifadəsi iltisaqi-aqlyutinativ dillərin bu yolları adlayaraq tam sabitləşdiyini sübut edir.

**"4.5. Paleoetnooykonimlərdə predikativlik"** paraqrafında dilçilikdə geniş tədqiq olunan predikativlik və prediqkatın adlardakı yeri izah edilir. Burada predikativlik, predikat-məntiqdəki mühakimə, obyektini-subyekti, mübtəda müəyyən edən anlayış, xəbər isə məntiqi predikatlıq hesab edilir. C.Cavadov predikativliyi təktərkibli cümlədə cümlə, bir səs, bir söz, söz birləşməsi, tamlıq intonasiyası, A.Axundov və N.Məmmədov isə mənalı hissə kimi izah edir. Cümlədəki hər sözdə predikativliyin olması, əvvəlki sözlərin zəif-kvazipredikativ halı və nəhayət sonda, predikativliyin cümlənin xəbərində möhkəmlənib, monopredikativ cümləlləri yaratması burada genişliyi ilə öz əksini tapır. Dilçilikdə predikativlik məntiqdə hökmün obyekti haqqında fikir, məntiqi xəbər, predikat və subyektin ənənəvi anlayışnı, müasir Azərbaycan dilçiliyində isə "Sözlər predikativliyi qəbul etdikdən sonra müəyyən fikri ifadə etdiyini göstərir və adlıq cümlələrdə predikativlik əsasən intonasiya yardımı ilə yaranır"[148] fikri elmi baxımdan əsaslandırılır və yeni elmi nəticə kimi göstərilir. Biz etnooykonimlərin quruluşunda bu ifadə formalarının tam olaraq, təkrarı ilə qarşılaşırıq.

A.Babayev xeyli dilçilərin məntiqi linqvistikaya dair fikirlərini təhlil edib, nitqdə psixoloji xəbərin predikat olduğunu, məntiqi predikatın işlənmə dairəsinin geniş olduğunu yazır. O, obyektiv gerçəklikdəki əşya və hadisələr haqqında hər hansı bir

---

[147] Fəzlullah, Rəşidəddin. Oğuznamə / Rəşidəddin Fəzlullah. –Bakı: Azərnəşr. – 1992. – s.30-31; Mahmud, Kaşğari. Divanü lüğat-it-türk. I c. / Kaşğari Mahmud. – Ankara: Türk Tarih Kurumu Basımevi, –1985. – s. 173; Севортян, Э.В. Этимологический словарь тюркских Языков. Т. I. / Э.В.Севортян. – Москва: Наука, –1974. – с. 607.

[148] Azərbaycan dilinin izahlı lüğəti / –Bakı: Şərq – Qərb, –2006. – s. 621; Müasir Azərbaycan dili. Sintaksis / –Bakı: Elm, – 1981. – s. 78.

təsdiq və ya inkar ifadəsini predikativlik hesab edir[149]. Bu fikirlər 600-dən artıq etnooykonimdəki mənalarda predikativliyi tam təsdiq edir ki, biz dissertasiyanın həcminə görə 532 etnooykonimin etimoloji izahlarında bu məsələyə toxunmuşuq.

**"Etnooykonimlərdə leksik, qrammatik və fonetik paleoazərbaycan dili elementləri"** adlı V fəsil özündə 6 paraqrafı birləşdirirək, **"5.1. Yazıyaqədərki dövr leksik vahidlər"** adlı paraqrafda, etnooykonimlərdə əski dövr leksik vahidlər tədqiq edilib, onların əsasən birhecalı olması, müasir sözlərimizin linqvistik təhlili və dil faktları ilə sübut olunmuşdur. **"5.2. Yazıyaqədərki dövr qrammatik elementlər-şəkilçilər"** paraqrafında Naxçıvan ərazisinə aid Gilan, Türkan, Qazan kimi xeyli oykonomlərdə türk dillərinə məxsus *-an, -çı, -at, -lı, -li* kimi mənsubluq və cəmlik şəkilçiləri, onların həm də *at*-"yurd, məkan", *An*-"An" tanrı, çı-"tayfa" kimi leksik mənada Massaçi, Kuerçi, Qazançı kimi tayfa adlarında təkrarı [3] [150]tədqiq edilmişdir. Bu fəslin **"5.3. Səsəvəzlənmələr-paralelliklər"** paraqrafında isə *a≈e≈ə≈o≈ü, b≈v, d≈t≈d, c≈z, l≈n, n≈m, r≈n* kimi arxasıra, önsıra sait və samitlərin səsəvəzlənmə hadisəsi tədqiq edilir. Qədim türklərlə bağlı adlarda *xalça-xəlçə, qəmiş-qamış, naxoş-noxoş, camış-comuş* kimi səsəvəzlənmələrin Naxçıvan və ümumtürk şivələrində *orak-urak-ürak, urman-ürman, vətən-vatan* kimi təkrarı geniş və müqayisəli təhlil olunur[151].

Paraqrafın **"5.3.1. Səsdüşümü hadisələri", "5.3.2. Səsartımı hadisələri", "5.3.3. Səslərin yerdəyişməsi-metateza"** bəndlərində səsdüşümü-diereza, söz önünə-proteza, söz daxilinə-epenteza, söz sonuna-epiteza və s. kimi səsartımı və səslərin yer dəyişməsi ümumtürk dialektləri ilə müqayisəli tədqiq edilir. Qeyd edilir ki, *baxacağam-baxacam, vağzal-vazğal, yatsıq-yastıq* kimi sözlərdəki

---

[149] Babayev, A.M. Dilçiliyə giriş / A.M.Babayev. – Bakı: Zəka-Print, –2017. s. – 442-445.

[150] Şirəliyev, M.Ş. Azərbaycan dialektologiyasının əsasları / M.Ş.Şirəliyev. – Bakı: Maarif, – 1967. – s. 40-43; Дрвнетюркский словрь / – Ленинград: Наука. – 1969. – с. 64-65; Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. I. / Э.В.Севортян. – Москва: Наука, – 1974. – s. 197-200.

[151] Şirəliyev, M.Ş. Azərbaycan dialektologiyasının əsasları / M.Ş.Şirəliyev. – Bakı: Maarif, – 1967. – s. 40-43.

fonetik hadisələr ümumtürk arealında da təkrarlanmaqla, qədim türk dili qanunlarından irəli gəlir[152]. Bütün bu əski türk dili ünsürləri m.ö. minilliklərə aid qədim adlarda da izlənən tarixi sübutlardır.

Dissertasiyanın **"Nəticə"** hissəsində isə tədqiqatın əsas yekunlarına aid nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Azərbaycan adı "Asər bəylərinin yurdu"-As+ər+bay+can şəklində əski türk sözləri, As türkü adından yaranmış, siyasi yolla ad tarixi yazılara "Atropatekan", "Adərbaqdan" və s. kimi düşmüşdür. Naxçıvan ərazisində m.ö. VI minillikdən yaşamış asların əlifba və yazısı 3 min il sonra Finikiya əlifba işarələrində də təkrarlanmışdır.

2. As varisləri olan, Azərbaycan və Naxçıvan oykonimlərində adlarını yaşadan Turdi türklərinə də As əlifbası miras olaraq adlamış, bu işarələr Təbriz, Kəlbəcər, Gəmiqaya, Nüvədi yazılarında da qalmışdır.

3. Qədim Naxçıvan ərazisinin ilk svilizasiya mərkəzlərindən biri olması Gəmiqaya, Nüvədi və Diqor yazı işarələri ilə də sübut olunur ki, bu əlifba işarələri as, turdi, bastul türklərinə aid olmuşdur.

4. Naxər türkləri Misir fironu III Tutmosun yazılarına "Naxa-rain"-Naxər Mitan ölkəsi, Urartu yazılarına isə siyasi məqsədlə *Mâtu Nakru*-"düşmən ölkə" kimi düşmüşdür. Bu faktdan Azərbaycan ərazilərində urartuları özlərinə əcdad hesab edən ermənilər siyasi oyun məqsədilə faydalanmışlar. Lakin mövcud faktlar erməni dilində həmin adların olmadığını tam sübut edir.

5. Tarix və dilə dair qaynaqlar Naxçıvan-Naxər ölkəsinin m.ö. minilliklər Azərbaycan türklərinin ana yurdu olmasını, onların məntəqə adlarındakı izləri ilə sübut edir. Bu yazılarda Naxçıvan, Araz ətrafı, Göyçə, Van, Urmiya gölləri arası, indiki Gürcüstanın cənub bölgələri və Qara dənizədək əraziləri də əski türklərin məskun olduğu ərazi kimi verilir.

6. Naxçıvan ərazisindəki m.ö. VI-I minilliklərlə bağlı etnooy-konimlərin semantik-struktur sisteminin tədqiqi, adlardakı əski türk leksik vahidlərinin Aratta, Mitan, Manna, Midiya kimi türk dövlət və çarlıq adlarında da təkrarı ərazinin türklərin ana yurdu olduğunu

[152] Babayev, A.M. Dilçiliyə giriş / A.M.Babayev. – Bakı: Zəka-Print, –2017. – s. 442-445; Məmmədov, N.N. Dilçiliyə giriş / N.N.Məmmədov., A.A.Axundov. – Bakı: Maarif, –1980. – s. 73-81.

təsdiq edir.

7. Apardığımız tədqiqatlar etnooykonimlərdəki qədim sözlərin birhecalı olmasını təsdiqləyir və həmin birhecalı sözlər, Şumer, Assur, Hett, Axxiyava yazılarında da türklərlə bağlı adlarda təkrarlanır. Dilimizdəki *oğul* sözünün *ok*-"varis", *ul/il*-"yurd"-"yurdun varisi", *ağcaqqal* sözünün *ağ*-"uca", *sa*-"zəka, ağıl", *kal*-"ulu"-"uca ulu zəka" kimi mənaları da bunun elmi sübutlarıdır.

8. Etnooykonimlərin formalaşmasında qədim türk sözlərinin tarixi dövrü və sabitliyi, aqqlutinativ-iltisaqi dillərin amorf, flektiv dillərdən qədim olub, bu mərhələləri adlayaraq onlardan öncə tarix səhnəsində olduğunu tam sübut edir.

9. Naxçıvan MR ərazisində türk tayfa adlarından yaranmış və əcnəbi alimləri tərəfindən 33-ü "ərəb, fars", 28-i erməni dillərinə aid edilmiş oykonimlər V.Radlov, M.Kaşğari, E.Sevortyan və başqalarının lüğətlərində özünü türk sözləri olaraq sübut edir.

10. As, Hürrü, Kuti, Kas, Subi kimi prototürklərin adına qoşulan "vəng", "berd", "zor", "kert" kimi əski türk sözləri türk dilinə aiddir və erməni dilinin ümumtürklərə bu cür təsiri mümkün deyil.

11. Naxçıvan oykonimlərinin ərazidəki yerli qədim türklərə aidliyi, qədim tarix və dil faktları, Assur, Akkad, Hett, Axxiyava, Urartu yazıları, mənbələr kimi elmi faktlarla da tam sübut olunur.

12. Kuti, Hürrü və Lulubəy türkləri mənbələrə *"kutu kal", "matu lulu", "matu hurru"* kimi düşmüş və Naxçıvan oykonimlərində adları qalan bu tayfalar Mitan, Aratta, Manna dövlətlərinin yaranmasında əsas rol oynamışlar.

13. Şu türkləri Urmiya, Van, Göyçə gölləri arasını əhatə edən Naxər-qədim Naxçıvan ərazilərindən kassi türkləri ilə Assur və Elam ərazilərinə yayılmaqla, qədim Azərbaycan və Elam dövləti ərazisində Şuşa-"Zəkalı Şu" adda ilk şəhər salmışlar.

14. Kuti, Lulubi, subarlərlə ittifaqda olan türükkülər m.ö. IV minillikdən tarixdə yer almış, Bütöv Azərbaycan və Naxçıvan ərazisində yerli tayfalar kimi Aratta, Kuti, Lulubi, Mitan ərazilərində böyük güc olmuşlar. Onlar Akkad yazıları və tədqiqatlarda *"Turuk", "Türkay", "Turkiş", "Türükkü"* və s. adlarla yerli tayfa kimi, m.ö. IV minillikdə Qafqaz, Azərbaycan, Van gölü ətrafında qeyd edilir.

15. Sovet siyasəti ilə Kuti, Lulubi, Hürrü, Naxər türkləri gürcü, kürt, erməni, talış əcdadları kimi verilsə də, bu tayfa dili və əraziləri, ermənilərin, gürcülərin, talışların tarixdə olmadığı dövrdə, m.ö. VI-III minilliklərdə mövcud olmuşdur.

16. Dissertasiyada etnooykonimlərin formalaşmasında əski dürk sözləri ilə qeydə alınan “tus”, “pal” komponentlərin qədim türk tayfa adı olduğu ilk dəfə dil və tarixi faktlarla sübut olunmuşdur.

17. Tədqiqatlara Yunan tayfası kimi düşən Doray türkləri qədim Naxər-Naxçıvan ərazisinin yerli sakinləri olmuş, bu ərazidən Kiçik Asiya-Türkiyə ərazisinə adlayıb, 3 dəfə yunanlara hücum edib, onları əsarət altına almış, öz mifik inanclarını da onlara aşılamışlar.

18. Bu qədim türk tayfa adları öz adlarını m.ö. minilliklər türk tayfa inanclarındakı Tanrı adlarından götürmüşlər.

Yekun olaraq qeyd edək ki, dissertasiyada tarix, dil, coğrafi faktlara, antik mənbə və müəlliflərə, 30-dan artıq lüğətlərlə istinadən 37 elmi nəticə əldə edib, mövcud problemlərə elmi faktlarla aydınlıq gətirmişik. Dissertasiyada 532 etnooykonimin etimoloji izahı verilsə də, biz bu istiqamətdə 6 kitabımızda 800-dən artıq etnooykonimin təhlili ilə bağlı yeni nəticələri elmi dövriyyəyə daxil etmişik. Həmçinin 27-si xaricdə olmaqla 80-dən yuxarı digər elmi jurnalda, beynəlxalq konfranslarda elmi məqalə dərc edilmişdir. Biz tədqiq etdiyimiz etnooykonimlərin m.ö. VI-I minilliklərlə bağlılığı və semantik-struktur quruluşunun tam həll olunduğunu düşünmürük və bu istiqamətdə tədqiqatlar davam edəcəkdir. Ona görə də problemlə bağlı mülahizə və fikirlər müzakirə üçün əsas mövzu ola bilir. Bunu ciddi qəbul edib, fikirlərimizi tədqiqatçılarla bölüşməyə hazırıq.

Dissertasiyanın əsas məzmunu dərc edilmiş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

## Kitablar

1. Qədim Şərur oykonimlərinin mənşəyi. Monoqrafiya / – Bakı: Nurlan, – 2006, – 242 s.

2. Naxçıvan əhalisinin etnogenezi tarixindən (monoqrafiya). I c. (m.ö.VI-III minilliklər) / – Bakı: ADPU nəşriyyatı, –2013. –529 s.

3. Naxçıvan əhalisinin etnogenezi tarixindən (monoqrafiya). II

c. (m.ö. II-I minilliklər) / – Bakı: ADPU nəşriyyatı, – 2017. – 588 s.

4. Naxçıvan tarixi I c. (monoqrafiya) / –Naxçıvan: Əcəmi, – 2013. – 452 s. (III fəsil).

5. Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri. Monoqrafiya / – Bakı: ADPU, – 2019. – 244 s.

6. Qədim Naxçıvan–Naxər ölkəsi türklərinin mifoloji inancları və bu miflərin yayım arealı. Monoqrafiya. I c. (m.ö.VI-III minilliklər) / –Bakı: ADPU nəşriyyatı, – 2023. – 359 s.

7. Qədim Naxçıvan–Naxər ölkəsi türklərinin mifoloji inancları və bu miflərin yayım arealı. Monoqrafiya. II c. (m.ö. II-I minilliklər) / – Bakı: ADPUnəşriyyatı, – 2024. – 431 s.

**Məqalələr və konfrans materialları**

8. Naxçıvan toponimlərində əski dil elementləri // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2006. № 2, – s. 36-40.

9. Qədim Şərurda əski muğ (manq/maq) türk etnosları ilə bağlı yer adları // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2006. № 19, – s. 97-100.

10. Naxçıvanda miladdan öncə və sonrakı minilliklərdə yaşayan Tayfaların etnogenezi məsələləri // – Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri (Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 9-10 iyun, 2006-cı il, – 2006. – s. 345- 360.

11. Qədim və müasir Naxçıvan ərazisində Kas tayfalarının qolları // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Tusi, – 2007. № 3, – s. 151-160.

12. Xaçı yaradanlar və Xaçmataq türkləri (Naxçıvan materialları əsasında) // Kıbatek XIII. Edebiyyat Sempozyumu. – Adana-Antakya: Nobel kitabevi. – 2007, – s. 141-146.

13. Qədim Naxçıvanda “Yaycı” oykonimləri və onların mənşəyi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – Naxçıvan: Tusi, – 2007. №1, – s. 90-96.

14. Kadim Nahçıvanda Peçeneq türkleri / – Ankara: Folklor/ Edebiyyat, – 2007. № 3, – s. 163-172.

15. Naxçıvan toponimlərinin tədqiqi problemləri / Naxçıvan

Muxtar Respulikasının yaranması: tarix və müasirlik (2007-ci ildə keçirilmiş elmi praktik konfransın materialları). – Bakı: 8 fevral 2007. – s. 259-268.

16. Qədim Naxçıvanda Oğuz türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2007, № 1 (21), – s. 169-177.

17. Naxçıvan tarixində Gel tayfaları // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2008. c. 24. № 4, – s. 178-184.

18. Naxçıvana erməni iddiaları: yer adlarımız və tarixi gerçəklik // Naxçıvan bu gün: islahatlar perspektivlər. 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları, – Bakı: – 5-6 oktyabr 2008. – s. 242-251.

19. Yer Adlarında Yazıyakaderki Türk Dili Ünsürleri ve Eski dil Ortaklığı / VI. Uluslar Arası Türk Dili Kurultayı, – Ankara: 20-25 Ekim 2008. – Ankara Universitesi, Türk Dil Kurumu Yayınları, – 2009. – s. 3695-3704.

20. Naxçıvanın etnogenezi tarixində Subi türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2009. № 2 (27), – s. 214-220.

21. Naxçıvanda Kass türkləri ilə baglı etnooykonimlərdə yazıya qədərki dövr dil elementləri //– Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2008. № 1, – s. 163-173.

22. Kafkasiyanın Etnik Yapısı (Nahçıvan ve İrevan hanlığı materialları) // – Istanbul /Topkapı: Panorama, Uğur Matbaaçılıq, – 2008. sayı 4, s. – 76-79.

23. Oykonimlərin dəyişdirilməsi, səthi etimoloji izahlar dilimiz və tariximizin oğurlanmasına yol açır / Bakı Dövlət Universitetinin 90 illik yubleyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. – Bakı: BDU nəşriyyatı. – 2009. – s. 126-128.

24. Naxçıvanda Sak, Subi, Maq türkləri ilə bağlı etnooykonimlərdə yazıyaqədərki dövr tük dili elementləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2009. №1, – s.158-164.

25. Nahçıvanın Etnogenezi Tarihinde As Türkleri // – Ankara:

Bilim Kültür Araştırma Dergisi Yol, Öztepe Matbaçılıq. – 2009. – s. 208-218.

26. Naxçıvanın etnogenezi tarixində Çul türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2009. №3, – s.185-192.

27. Naxçıvan tarixi coğrafiyasında Naxər türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2010. № 1, – s. 73-79.

28. Naxçıvan əhalisinin etnogenezində Kuti türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2010. №3, – s. 139-146.

29. Naxçıvan əhalisinin etnogenezində Subər türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Təbiət elmləri və tibb seriyası, – 2010. № 1, – s. 22-26.

30. M.ö. minilliklər Naxçıvan əhalisinin etnogenezində qədim Türükkü boyları // – Ankara: Bilimsel Eksen, BRC Basım, – 2100. № 1. – s. 119-127.

31. Nuh tufanı, Naxçıvan və tarixi həqiqətlər / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları, – Naxçıvan: 24-25 aprel 2009, – 2010. – s. 93-108.

32. Naxçıvanda Lulubəy boyları və onların dili (Naxçıvan oykonimləri əsasında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – Naxçıvan: Tusi, – 2010. №1, – s. 131-137.

33. Qədim Naxçıvan əhalisinin etnogenezində Qıpçaq türkləri //– Naxçıvan: – AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2011. cild 7, №1, – s. 107-114.

34. Naxçıvanda Qıpçaq türkləri ilə bağlı bəzi oykonimlərin leksik-semantik xüsusiyyətləri // – Bakı: AMEA Naxçıvan Bölməsi. “Axtarışlar” jurnalı, – 2011. №1, – s. 83-88.

35. Naxçıvanlıların etnogenezi tarixində Koman türkləri // – Bakı: AMEA Naxçıvan Bölməsi. “Axtarışlar” jurnalı, – 2011. №2, – s. 105-111.

36. Naxçıvan ərazisində Tal türklərinin yaratdığı etnooykonimlərin etimoloji izahları // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, – 2011. № 2 (42), – s. 163-167.

37. Nuh adı ilə yaranmış qədim türk tayfası “naxərlər”/ Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi. Beynəlxalq simpoziumun materialları. – Naxçıvan: Əcəmi NPB, – 2012. – s. 300-308.

38. Naxçıvanda Çul türkləri ilə bağlı oykonimlərin etimologiyası // – Bakı: AMEA Naxçıvan Bölməsi. “Axtarışlar” jurnalı, – 2012. № 4, – s. 78- 82.

39. Проэтносы Асы в этногенезе Нахчыванцев (На основе Нахчыванских этноойконимов) // – Москва: Актуальные проблемы гуманитарных и естественных наук. – 2012. – с. 132-136.

40. Nahçıvan ve Iğdır yörelerinde prototürkler ve Tarihi köçler / II Uluslararası Aras havzası sempozyumu. 13-15 aralık, – 2011. – Iğdır. – Arzurum: Zafar ofset, – 2012. – s.112-122.

41. “Oğuz” sözüne yeni etimolojik bakış. Onların asıl tarihi ve Nahçıvan, Doğu Anadolu yörelerinde yayılımı / I Uluslararası Ahlat-Avrasiya Kültür ve Sanat Sempozyumu. – İstanbul: Atölye Osman Matbaa, – 2013. – s. 299-303.

42. Naxçıvanda qədim Hürrü boyları və onların dili (Naxçıvan oykonimləri əsasında) // Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – Naxçıvan: – 2013. №1, – s. 121-128.

43. Naxçıvanlıların etnogenezi tarixində Doray türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2013. № 2(54), – s.10-18.

44. Племена Нахары в этногенезе древних Нахчыванцев // – Киıв: Етнична Iсторıа Народıв Европи. ВАК Украıни, – 2013. № 41, – с. 132-136.

45. “Aras” isminin etimolojik açılımı ve eski As Türk boyları / I Uluslararası Aras Havzası Sempozyumu, 05- 08 temmuz. – 2010. – Kars, -İstanbul: Kağızman, Atölye ofset, – 2013. – s. 205-210.

46. Qədim Naxçıvanın Mesopotamiya ilə etnogenetik əlaqələri (m.ö. VI-III minilliklərə aid Naxçıvan oykonimləri əsasında) / Naxçıvan ilkin şəhər və Duzdağ. 27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpozium materialları. – Naxçıvan: Əcəmi, – 2013. – s. 87-101.

47. Naxçıvan, Boğazköy yazıları və Hürrü prototürkləri // –

Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2013. №3, – s. 118-130.

48. Naxçıvanda Lulubəy boyları və onların dili (Naxçıvan oykonimnimləri əsasında) // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2014. №1, –s. 156-164.

49. Nahçıvan ahalisinin etnogenezi tarihinde Tus Türkleri //– Iğdır: İğdır Universitesi Dergisi. – 2014. c. 4, № 3, – s. 291-306.

50. Naxçıvanlıların etnogenezi tarixində Skif-Paralat türkləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, – Naxçıvan: Qeyrət, – 2014. № 5, – s. 112-115.

51. Naxçıvanlıların etnogenezi tarixində Şu/Su türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri,– 2014. № 2, – s. 158-167.

52. Naxçıvanlıların etnogenezi tarixində Turdi boyları //– Bakı: AMEA Naxçıvan Bölməsi "Axtarışlar" jurnalı. – 2014. №1, – s. 99-107.

53. Племена Хурриты в этногенезе Нахчыванцев // – Красноярск: В мире Научных открытый. Научно-Инновационный Центр, – 2015. № 3 (61), – с. 1446-1464.

54. Naxçıvan ərazisindəki prototürk tayfalarının tədqiqi istiqamətləri / Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir. Beynəlxalq konfransın materialları, 04-05 iyul 2014, –Naxçıvan: Əcəmi, – 2015. – s. 220-227.

55. Naxçıvanlıların etnogenezi tarixində Paralat türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri.– 2015. № 3, – s. 175-183.

56. Племена хурриты в летописях и их следы в древнем Нахчыване // – Киıв: Гiлея. ВГО Украiнська Академiя Наук, Науковий Вiсник. Киıв: Видавництво, – 2015. Випуск 94 (№ 3), – s. 120-124.

57. Müstəqillik illərində Naxçıvanda prototürklərlə bağlı etno-oykonimlərin tədqiqi istiqamətləri (elmi konfransın materialları) // Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr. – Naxçıvan: – 3-4 dekabr, 2015-ci il, – Naxçıvan: Əcəmi NPB, – 2016. – s. 254-266.

58. Naxçıvan ərazisindəki prototürk tayfa adlarının

yaranmasında qədim türk mifi / Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri (Beynəlxalq İpək Yolu konfransı 16-17 oktyabr, Naxçıvan). – Naxçıvan: Naxçıvan Universiteti, – 2015, – s. 149-161.

59. Naxçıvanlıların etnogenezi tarixində Kəngər türkləri // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, – 2015. № 2, – s. 10-16.

60. Naxçıvanlıların etnogenezi tarixində Pal/Pala türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. – 2015. № 1, – s. 125-132.

61. Naxçıvanlıların etnogenezi tarixində Zəngi türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. – 2016. № 3, – s. 229-238

62. Naxçıvanlıların etnogenezi tarixində Bulqar-Bolqar türkləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu,– 2016. № 3, – s. 84-95.

63. Племены Турукки в этногенезе Нахчыванцев Academic council of the Volodymyr Dahl East // – Kiev: Ukrainian National University – Virtus. Scientific Journalthe proceedings, – 2017. №1, – с.162-167.

64. Naxçıvan əhalisinin etnogenezi tarixində Kaspi türkləri // – Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi əsərləri, – 2017. № 1(4), – s. 97-107.

65. Этноойконимы, связанные до н.э. с именами Ас, Нахар и Турукки живущих в Нахчыване //– Москва: Актуальные проблемы гумманитарных и естественных наук. часть II, – Москва: Литера, – 2017. № 07, – с. 40-45.

66. Naxçıvan ərazisindəki prototürk tayfa adlarının yaranmasında qədim türk mifi // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, –2017. № 1, – s. 218-223.

67. Naxçıvanda m.ö.yaşamış Şu-Su prototürkləri ilə bağlı etnooykonimlər// – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, "Axtarışlar" elmi jurnalı, –2017. №3, – s. 79-86.

68. Əski yazılarda kuti, lulubi türkləri və onların Naxçıvan, Iğdır yer adlarında izləri / Tarih ve kültür ekseninde Orta Aras havzası Uluslararsı sempoziumu, –17-19 kasım, 2016. – Ankara:

Atatürk araştırma merkezi, – 2018. №1, – s. 539-555.

69. Naxçıvanda m.ö. yaşamış Turdi prototürkləri ilə bağlı etnooykonimlər // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2018. № 3, – s. 147-152.

70. Azərbaycan xalq cümhuriyyəti ərazilərindən zorla qoparılmış mahalların toponimik sistemində qədim dil və tariximiz / Azərbaycan xalq cümhuriyyəti 100. Müsəlman şərqində ilk parlamentli Respublika, Azərbaycan xalq cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, – Bakı: – 21-23 may, 2018-ci il, Elm və təhsil, – 2018. – s. 405-409.

71. Прототюрки в Нахчыване и их исторические kочевания // – Ukrainia: Academic council of the Volodymyr Dahl East Ukrainian National University Virtus. Scientific Journal the proceedings. – 2018. № 1, – с. 149-153.

72. Naxçivanda m.ö. yaşamiş Bolqar-Bulqar prototürkləri ilə bağli etnooykonimlər// – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, – 2019. №2 (13), – s. 76-84.

73. Naxçıvan ərazisi toponimlərində kan/kanq/kanqxa qədim türk tanrı adının izləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. “Axtarışlar” elmi jurnalı. – 2019. №1, – s. 73-79.

74. Dor/doray qədim türk tanrı adının Naxçıvan ərazisi toponimlərində izləri // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. –2019. Cild. 15, № 1, – s.108-114.

75. Naxçıvanda m.ö. yaşamiş Partagen prototürkləri ilə bağli etnooykonimlər// – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2019. №2, – s.108-111.

76. Kangar tribes in Nakhchivan and the oykonyms related withthem // – Genero &Direito: Periódico do Núcleo de Estudos e Pesquisas sobre Gêneroe Direito Centro de Ciências Jurídicas, – Universidade Federal da Paraíba Ano, – 2020. V 9, № 03, – s. 904 – 916.

77. Muxtariyyət dövrü Naxçıvanın itirilmiş ərazilərindəki toponimik sistemdə qədim dil və tariximiz // Naxçıvan Muxtariyyəti tariximizdə və günümüzdə. Respublika konfransının materialları, – Naxçıvan: –22 noyabr 2019-cu il, – 2020. Tusi, – s. 124-131.

78. Friq-ermənilərin türklərdən “Tarix” oğurluqları // – Ankara-Türkiye: Kültür Evreni. Uluslararası Hakemli Dergi. Sosial bilimler. Bizim Dijital. – 2020. № 38, – s. 45-54.

79. Nahçıvan ve ümumtürk etnogenezi tarihinde Tal türkələri // – Ankara: Kültür Evreni. Uluslararası Hakemli Dergi. Sosial bilimler. Ankara Bakanlıklar, – 2020. № 39, – s. 75-86.

80. Naxçıvanda m.ö. yaşamiş Arizant prototürkləri ilə bağli etnooykonimlər // – Naxçıvan: “Naxçıvan” Universitetinin Elmi əsərləri, – 2020. №1 (16), – s. 60-67.

81. Eski Kaynaklarda Cocukları koruyan prototürk tanrıları onların, Nahçıvan ve ümumtürk coğrafi adlarında izi / VII.Uluslararası Cocuk ve Genclik Edebiyyat Sempozyumu bildirileri. – İstanbul: – 23-24 Ekim, 2020, – Kars: Türkiye, İstanbul: Akademi Matbaası, – 2021. – s. 305-316.

82. Naxçıvan oykonimlərində m.ö. minilliklərə aid leksik elementlərin formalaşma yolları // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi. “Axtarışlar” elmi jurnalı, – 2021. № 2, cild 15, – s. 120-125.

83. Müstəqillik dövrü Naxçıvan toponimik sisteminin tədqiqi istiqamətləri / Dayanıqlı inkişaf, uğurlar, perspektivlər. Beynəlxalq konfransın materialları, – Naxçıvan: –14- 15 avqust, 2020,– 2021. – s.140-146.

84. Naxçıvan qədim türklərin və türk miflərinin ana yurdu // Naxçıvan: mədəniyyətlərin qovuşduğu məkan. Beynəlxalq Elmi konfransın materialları. – 22-23 oktyabr, 2020-ci il, – Naxçıvan: – 2021. – s. 288-295.

85. Miladdan öncəki minilliklərə aid Naxçıvan oykonimlərində leksik və qrammatik Azərbaycan dili elementləri / Çağdaş Azərbaycan dilinin müasir problemləri. Respublika elmi konfransının materialları. – Naxçıvan: –30 oktyabr 2020-ci il. – 2021. – s. 51-56.

86. Naxçıvanda m.ö. yaşamış Basil-Barsil prototürkləri ilə bağlı etnooykonimlər // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, “Axtarışlar” elmi jurnalı, –2021. c. 15, № 4, – s. 120-125.

87. Naxçıvanın coğrafi adlarında qədim türk mifinin izləri. (M.ö. III-II minillikər) / II. Uluslararası Türk Dünyasi Iletisim ve

Sanat Sempozyumunun materialları. – Niğde, Türkiye: Bildiriler Kitabı, – 12-14 mayis 2022-ci yıl, – 2022. – s. 479-485.

88. Naxçıvanlılarin etnogenezi tarixində Peçeneq türkləri / Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı. Beynəlxalq konfransın materialları. – Naxçıvan: – 7-8 iyul, 2021, – 2022. – s. 100-106.

89. Naxçıvanın m. ö. minilliklərə aid etnooykonimlərində amorf-kök dili formalari // –Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri. – 2022. cild 18, № 1, – s. 120-124.

90. Naxçıvanın m. ö. minilliklərə aid etnooykonimlərində flektiv dil formalari // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" elmi jurnalı. – 2022. № 1, – s. 44-49.

91. Qədim Şuşa şəhərinin tarixi və adın etimologiyasına dair tarixi faktlar / "Azərbaycanin elm və mədəniyyət mərkəzi–Şuşa" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları. AMEA Elm Tarixi İnstitutu, Elm Tarixi və Elmşünaslıq. Beynəlxalq jurnal. 06.05, 2022-ci il, – Bakı: "Elm və Bilik P.Z", – 2022. – s. 39-43.

92. Azərbaycan dilinin tarixinə mənbələr əsasında baxış / Naxçıvan Dövlət Universiteti. "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda II Respublika elmi konfransının materialları. – Naxçıvan: – 06 yanvar 2023-cü il, "Qeyrət" nəşriyyatı, – 2023. – s. 145-149.

93. Naxçıvanın m.ö. minilliklərə aid etnooykonimlərində iltisaqi-aqqlütinativ dil formalari // – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, İncəsənət Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" elmi jurnalı. – 2023. cild 17, № 1, – s. 62-65

94. Ermeni işgalı altındakı Azerbaycan arazilerinin isimlerinin değiştirilmesi ve türklerden "tarih" çalınması // – Ankara: Radikal ermeni unsurlarca gerçeşlektirilen mezalimler ve vandalizm. – Ankara: Terazi yayınçılıq, – 2023. – s. 133-140.

95. Qərbi Azərbaycanda türk tayfa və məntəqə adları-oykonimlərin "erməniləşdirilməsi" / Qərbi Azərbaycana qayıdış. Naxçıvan Dövlət Universitetində keçirilən Festival-Konfransın

materialları. – Naxçıvan: – 23-24 noyabr 2023-cü il. – 2024. – s. 395-401.

96. Türk iltisaqi dillərin amorf, flektiv dillərdən qədimliyini göstərən tarixi dil faktları / Türkiyenin Kayseri şəhərində keçirilmiş Uluslararası Sempozyumun bildirileri. – Kayseri: – 22-24 aprel, 2024-cü yıl, – 2024. – s. 65-76.

97. Qədim Naxçıvan xalçalarında prototürk damğaları və yazı işarələri // – Bakı: Mahmud Kaşğarlı. Beynəlxalq elmi jurnal. – 2024. cild II, №3, – s.134-142.

98. Muxtariyyatdan öncəki minilliklər və muxtariyyatdan sonrakı dövrdə Naxçıvana aid etnooykonimlərdə qədim dil formaları / Naxçıvan Muxtar Respublikasının yaradlması: keçmişdən bu günə və sabaha. Beynəlxalq konfransın materialları. – Bakı: – 10 iyun, 2024-cü il, Elm və təhsil, – 2024. – s. 405-412.



Dissertasiyanın müdafiəsi 30 iyun 2025-ci il tarixində saat 14⁰⁰–da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.39 Dissertasiya şurası bazasında yaradılmış BED 2.39 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universiteti.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.05.2025
Kağızın formatı: 60/84,16/1
Həcm: 77230 işarə
Tiraj: 100